QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 030 (6230) 17 fevral 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Prezidentin işğaldan azad olunmuş torpaqlara səfəri dünyaya bir mesajdır!



*Prezident İlham Əliyev: "Yenə də azad edilmiş torpaqlardayıq. Torpaqların bərpası prosesi artıq başlamışdır"*

Bax 4

## YAP-ın üzvləri Qarabağ Dirçəliş Fonduna 500 min manat vəsait toplayıb

Yeni Azərbaycan Partiyası işğaldan azad edilmiş torpaqlarımızda dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə geniş quruculuq-bərpa və abadlıq işlərinin aparılması, təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə yaradılmış Qarabağ Dirçəliş Fonduna...

Bax 6

## Giorgi Qaxariya: Cənub Qaz Dəhlizi Azərbaycanı və Gürcüstanı beynəlxalq miqyaslı oyunçuya çevirib



"Şahdəniz" yatağından Avropaya kommersiya məqsədli qaz nəqlinin başlanması Gürcüstan üçün də mühüm əhəmiyyət kəsb edir. Bu layihə Gürcüstanın enerji təhlükəsizliyində və iqtisadi inkişafında mühüm yer tutur. Bu sözləri jurnalistlərə müsahibəsində Gürcüstanın Baş naziri Giorgi Qaxariya söyləyib. Onun sözlərinə görə, Cənub Qaz Dəhlizinin iqtisadi məqsədi Avropa bazarı...

Bax 7

## Rusiyalı ekspert: Münhendə açıq dialoqun yekunu Azərbaycan Prezidentinin qəti qələbəsi oldu



2020-ci il fevralın 15-də, Azərbaycan və Ermənistan arasında hərbi əməliyyatların yenidən başlanmasından əvvəl, lakin rəsmi Yerevanın "Arsax" (Dağlıq Qarabağ) - Ermənistandır və nöqtə" şüarını elan...

Bax 6

## Baş Prokurorluq: Qeyri-qanuni çağırışlar edən Niyaməddin həbs edildi



Ölkəmizin milli təhlükəsizliyinə, habelə respublikamızın konstitusiya quruluşunun zorla dəyişdirilməsi və ərazi bütövlüyünün parçalanmasına yönəlməklə antiazərbaycan qüvvələrə və onların maraqlarına...

Bax 12

## Vergidən azadetmə çörəyin qiymətini qoruya biləcəkmi?

Azərbaycanda buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı daha 3 il əlavə dəyər vergisindən azad olunma müddəti artırılır. Bununla bağlı Milli Məclisdə Vergi Məcəlləsinə dəyişiklik layihəsi artıq ikinci oxunuşda müzakirəyə çıxarılaraq qəbul edilib. *Aydın məsələdir ki, burada məqsəd bu məhsulların bahalaşmasının qarşısını almaqdır. Ancaq bahalaşmanın qarşısını almaq üçün yalnız ƏDV-dən azad etmək kifayət...*



Bax 9

**Qazi: Tabutu sındırıb dedim ki, hələ sağam...**



Bax 10

**Anna Akopyan bu dəfə bahalı geyimi ilə "topa tutuldu"**



Bax 9

**Əli Kərimli Sevinc smanqızını ölümlə təhdid etdi?**



Bax 14

# "Biz əvvəl olduğu kimi, bundan sonra da beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi dəstəkləyəcəyik"

*Prezident İlham Əliyev Belarusun Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da Belarus Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Andrey Ravkovun etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, etimadnaməsini Prezident İlham Əliyevə təqdim edən səfir Andrey Ravkov dedi:**

- Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti, icazə verin, Sizi salamlayım. Belarus Respublikasının Prezidenti Aleksandr Qriqoryeviç Lukaşenkonun etimadnamələrini Sizə təqdim etməyi özümə şərəf sayıram. Bu etimadnamələrlə o, mənə Belarus Respublikasının Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri kimi son dərəcə məsuliyyətli bir missiyanı etibar edir. Sizə bildirirəm ki, əvvəlki səfir Gennadi Vladimiroviç Axramoviç işini başa çatdırıb və Belarus Respublikasına gedib.

Səfiri salamlayan Prezident İlham Əliyev:

-Sağ olun. Sizi Azərbaycanda salamlayıram, vaxtınızın xoş keçməsini və fəal iş arzu edirəm. Mənim fikrimcə, iş çox olacaq. Ona görə ki, bizim dövlətlərarası münasibətlərin gündəliyi yetərincə genişdir, çox sahələri əhatə edir. Son illərdə biz həm siyasi, həm iqtisadi sahələrdə, həm də sənaye kooperasiyası sahəsində fəal qarşılıqlı işlər görmüşük. Əlbəttə, bu cür fəal qarşılıqlı işləri davam etdirmək niyyətindəyik.

Əsas məsələ ölkələrimiz arasında dostluq münasibətləridir. Uzun illər boyu bu münasibətlər böyük potensiala, yaxşı dinamikaya malik olduğunu göstərir. Ali səviyyədə tez-tez əlaqə saxlamağımız, qarşılıqlı səfərlər, əlbəttə, münasibətlərimizin inkişafına böyük təkan verir və biz əməkdaşlığın yaxşı nümunələrini görürük. Bu, ticarət sahəsinə də aiddir. Hərçənd, pandemiya ilə əlaqədar təbii ki, bütün ölkələrdə ümumi daxili məhsulun və əmtəə dövriyyəsinin azalması müşahidə olunur. Buna baxmayaraq, düşünürəm ki, pandemiyadan sonra biz qısa müddətdə vəziyyəti bərpa edəcəyik. Bütövlükdə pandemiyadan əvvəlki son illərdə bizim ticari-iqtisadi münasibətlərin çox fəal dinamikası, idxal və ixrac etdiyimiz malların çeşidinin genişlənməsi müşahidə olunurdu.

Əlbəttə, sənaye kooperasiyası əməkdaşlığın mühüm istiqamətidir. Azərbaycanda Belarus-Azərbaycan müştərək müəssisələrinin yaxşı nümunələri var. Biz hətta üçüncü ölkələrin bazarlarına birlikdə çıxırıq. Fikrimcə, bu istiqamətdə əlavə addımlar atılacaq. Uzun illər boyu uğurla həyata keçirilən hərbi-texniki əməkdaşlıq mühüm sahədir. Biz hərbi-texniki əməkdaşlığın potensialını artırmaqla, o cümlədən yüksək texnologiyalar sahəsində də əməkdaşlıq edirik. Beləliklə, gündəlik yetərincə genişdir. Əminəm ki, Azərbaycanda olduğunuz müddətdə siz qarşılıqlı fəaliyyətin potensialını daha da artırmaq üçün bu məsələlərlə fəal məşğul olacaqsınız. Əlbəttə, biz əvvəl olduğu kimi, bundan sonra da beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi dəstəkləyəcəyik. Əminəm ki, belə çoxtərəfli və çoxplanlı birgə fəaliyyət bundan sonra da ölkələrimizin yaxınlaşmasına şərait yaradacaq. Sizə uğurlu iş və Azərbaycanda vaxtınızın xoş keçməsini arzu edirəm.



Səfir Andrey Ravkov: Sağ olun, cənab Prezident. İcazə verin, ilk növbədə, Sizə Aleksandr Qriqoryeviç Lukaşenkonun ən səmimi salamlarını və xoş arzularını çatdırım, Azərbaycan Respublikasının Prezidenti, onun dostu kimi həm ikitərəfli formatda, həm də beynəlxalq məkanlarda Belarus Respublikasına göstərdiyiniz dəstəyə görə Sizə onun səmimi təşəkkürünü bildirim.

Belarus Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü həmişə bütün məsələlərdə və ardıcıl olaraq dəstəkləyib. Biz atəşkəs barədə bəyanat imzalanması və Azərbaycanın əzəli torpaqlarını öz tərkibinə qaytarması xəbərini böyük ruh yüksəkliyi ilə qarşıladıq.

Hörmətli cənab Prezident, Siz tamamilə düzgün olaraq dediniz ki, dövlət rəhbərləri arasında dostluq və yüksək səviyyədə əlaqələr bu inkişafın, qarşılıqlı münasibətlərin möhkəmlənməsinin rəhnidir. Belarus da bunda maraqlıdır. Dövlətimizin başçısı Belarus Prezidentinin salamlarına və xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını və xoş arzularını Aleksandr Lukaşenkoya çatdırmağı xahiş etdi.

# Türkiyə mediası Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə səfərini geniş işıqlandırıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfərləri Türkiyə kütləvi informasiya vasitələri, o cümlədən Anadolu agentliyi, "TRT Haber", "Haber Global" telekanalları, "Təqvim", "Yeni Şafak", "Akşam" və digər qəzetlər tərəfindən geniş işıqlandırılıb.**

AZƏRTAC xəbər verir ki, Türkiyə mediasının yaydığı xəbərlərdə Prezident İlham Əliyevin səfər çərçivəsində söylədiyi fikirlər, o cümlədən işğal altındakı torpaqların amansızcasına dağıdılması, 44 günlük Vətən müharibəsi nəticəsində qazanılan böyük Zəfər, düşməndən azad olunan ərazilərdə aparılan bərpa işləri və digər məsələlər barədə verdiyi mesajlar türkdilli oxucuların diqqətinə çatdırılıb. Materiallardakı yazılı xəbərlər video və fotolarla müşayiət olunub.


HABER GLOBAL
SON DAKİKA GÜNDEM EKONOMİ DÜNYA SPOR MAGAZİN YAŞAM
Azerbaycan ile Nahçıvan arasında inşa edilecek demir yolu hattının temeli atıldı
Haberler | Dünya
Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, ülke ana karası ile Nahçıvan Özerk Cumhuriyeti arasında ulaşımın Ermenistan üzerinden sağlanmasının planlandığı yeni demir yolu hattının temel atma törenine katıldı.


DÜNYA
Azerbaycan Cumhurbaşkanı Aliyev, Ermenistan işgalinden kurtarılan bölgeleri ziyaret etti
Azerbaycan Cumhurbaşkanı Aliyev, Ermenistan'ın işgalinden kurtarılan Fuzuli, Zengilan, Laçın ve Cebrayıl illerini ziyaret etti.
Ruslan Rehimov | 14.02.2021



# “Biz siyasi sahədə çox uğurla əməkdaşlıq edirik”

*Prezident İlham Əliyev İndoneziyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da İndoneziya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Hildi Hamidin etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, etimadnaməsini Prezident İlham Əliyevə təqdim edən səfir Hildi Hamid dedi:**





-Zati-aliləri Prezident İlham Əliyev. İndoneziya Respublikasının Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin olunmağımla bağlı etimadnaməni və sələfimin geri çağırılması ilə bağlı məktubu Sizə təqdim etməkdən şərəf duyuram. İcazə verin, həmçinin Sizə Prezident Coko Vidodonun İndoneziya hökuməti və xalqı adından səmimi salamlarını çatdırım. Prezident Coko Vidodo İndoneziya ilə Azərbaycan arasında, xüsusilə iqtisadiyyat sahəsində daha güclü əməkdaşlığın və ikitərəfli əlaqələrin inkişaf etdirilməsi arzusundadır. Təşəkkür edirəm.

Səfiri salamlayan Prezident İlham Əliyev dedi:

-Xoş gəlmisiniz, cənab səfir. Sizi görməyə çox şadam. Xahiş edirəm mənim də ən xoş salamlarımı cənab Prezident Coko Vidodoya çatdırın. Mən bizim əməkdaşlıqda sürətli inkişafı görəcəyimə ümid edirəm. Siz də qeyd etdiyiniz kimi, iqtisadi sahədə daha mühüm tərəfdaşlıq istiqamətlərini müəyyən etmək üçün bizim çox böyük potensialımız var. Əlbəttə ki, müxtəlif sahələrdə əməkdaşlığımızı genişləndirmək üçün güclü siyasi əlaqələr çox faydalı olacaq. Biz siyasi sahədə çox uğurla əməkdaşlıq edirik, beynəlxalq təşkilatlarda, Birləşmiş Millətlər Təşkilatında bir-birimizi dəstəkləyirik. Sözsüz ki, biz səylərimizi Qoşulmama Hərəkatı Təşkilatı çərçivəsində koordinasiya edirik. Biz Qoşulmama Hərəkatında təşəbbüslərimizə dəstək nümayiş etdirdiyinə görə İndoneziyaya minnətdarıq.

Bildiyiniz kimi, Qoşulmama Hərəkatında şərəfli missiya olan sədrliyi üzərimizə götürəndə mən dedim ki, Azərbaycan öz fəaliyyətində, atdığı addımlarda beynəlxalq hüququ və ədaləti müdafiə edəcək. Biz işğal illəri ərzində İndoneziya tərəfindən Azərbaycana davamlı dəstəyin göstərilməsinə görə xüsusilə minnətdarıq. İndoneziya BMT Baş Assambleyası, həmçinin İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı tərəfindən qəbul edilmiş dəstək xarakterli qətnamələrə həmişə qoşulmuşdur və Azərbaycanın haqq işini dəstəkləmişdir. Bu dəstək uzun illər ərzində nümayiş etdirilmişdir və münaqişənin həlli üçün bizim mövqeyimizi, çox möhkəm hüquqi bazanın yaradılması prosesini gücləndirmişdir. Münaqişə zamanı hökumətiniz Azərbaycana dəstəyini ifadə etmişdir, biz bunu yüksək qiymətləndiririk. Xarici İşlər Nazirliyi erməni işğalçı qüvvələrin Azərbaycan ərazilərindən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına dəstək olaraq bəyanat vermişdir. Biz buna görə sizə çox minnətdarıq. Həmçinin ölkənizin parlamenti, parlamentinizin bir çox üzvləri Azərbaycanla həmrəy olduqlarını ifadə etmiş və dəstəyini bildirmişdir.

Bütün bunlar Azərbaycan xalqına məlumdur və bu, Azərbaycan hökuməti tərəfindən yüksək qiymətləndirilir. İndoneziya Birləşmiş Millətlər Təşkilatında müzakirələr zamanı müharibə gedən vaxt bizim mövqeyimizə güclü dəstək göstərən Qoşulmama Hərəkatının digər üzvləri arasında olmuşdur. Bildiyiniz kimi, Təhlükəsizlik Şurasının bəzi üzvləri yeni qətnamələrin və qərarların qəbul edilməsi prosesinə başlamaq istəyirdilər. Bu, əslində, bizim ərazilərin işğaldan azad olunması ilə bağlı haqq işimizi dayandırmaq üçün bir cəhd idi. Bu cəhdlər və düşünülmüş bu mətnlər Təhlükəsizlik Şurasının üzv ölkələri tərəfindən qəbul edilmiş qətnamələrə istinad etmirdi. Beləliklə, İndoneziya Qoşulmama Hərəkatının üzvü olan digər dost ölkələrlə birlikdə ərazi bütövlüyümüzün bərpa edilməsinin dayandırılmasına yönəlmiş bu cəhdlərin qarşısını aldı və biz bunu çox yüksək qiymətləndiririk. Biz buna görə minnətdarıq. Bu, həmrəyliyin, dəstəyin və dostluğun ifadəsidir. Beləliklə, bu, bizim əməkdaşlığın siyasi əsasıdır.

Biz indi irəliyə baxmalıyıq. Azərbaycan öz ərazilərini azad etdikdən və ərazi bütövlüyünü bərpa etdikdən sonra iqtisadi əməkdaşlıq üçün böyük imkanlar var, həmçinin işğaldan azad olunmuş torpaqlarda da. Biz planlaşdırdığımız müxtəlif layihələri icra etmək, həmçinin birliyimizi nümayiş etdirmək üçün İndoneziya şirkətlərini tərəfdaşlarımız, podratçılarımız qismində görmək istəyirik. Bu, bizim planımızdır. Sizə burada xoş vaxt keçirməyi, çox fəal iş arzulayıram. Çünki ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmaq üçün iqtisadi sahədə çoxlu işlər görülməlidir. Əminəm ki, sizin Azərbaycandakı fəaliyyətiniz zamanı biz yaxşı irəliləyiş görəcəyik.

Səfir Hildi Hamid: Zati-aliləri, İndoneziya ilə əlaqələrə göstərdiyiniz diqqətə görə Sizə təşəkkür edirəm. Zati-aliləri cənab Prezident, İndoneziyanın Azərbaycandakı səfiri təyin olunmağımdan şərəf hissi duyur, vəzifəmin məsuliyyətini tam dərk edirəm. Səfir olduğum müddətdə hər iki ölkənin hökumətləri və xalqları arasında dostluğu və qarşılıqlı faydalı əməkdaşlığı dərinləşdirməyə, qarşılıqlı anlaşmanı və dostluğu yaxşılaşdırmağa səy göstərəcəyəm. İndoneziya ilə Azərbaycan arasındakı əlaqələrin yeni səviyyəyə çatdırılması üçün əlimdən gələni əsirgəməyəcəyəm ki, Zati-alinizin və hökumətinizin tam dəstəyi ilə ölkələrimiz arasında əməkdaşlıq davam etdirilsin. Azərbaycan Respublikasına inkişaf, Azərbaycan xalqına isə rifah diləyirəm.

# Azərbaycan Prezidentinin işğaldan azad olunmuş ərazilərə növbəti səfəri Gürcüstan KİV-lərində geniş işıqlandırılıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfəri Gürcüstan mətbuatının diqqət mərkəzindədir.**



ილჰამ და მეჰრიბან ალიევები გათავისუფლებულ ტერიტორიებს ეწვივნენ - PHOTO

15 თებერვალი, 2021 12:17

აზერბაიჯანის პრეზიდენტი ილჰამ ალიევი და პირველი ლედი, მეჰრიბან ალიევა, ასევე მათი შვილი ლეილა ალიევა, 14 თებერვალს ფიზულის, ზანგილანის, ლაჩინის და ჯებრაილის რაიონებს ეწვივნენ.

AZƏRTAC xəbər verir ki, “marneulifm.ge”, “24news.ge”, “aktual.ge”, “report.ge”, “interpress.ge” informasiya portalları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə səfəri barədə silsilə materiallar yayıblar.

Portallar, həmçinin Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın həmin ərazilərə səfəri barədə video görüntülərlə yanaşı çoxlu sayda fotolar təqdim ediblər.

AZƏRTAC-a istinadla verilən foto, video və yazılı xəbərlərdə oxuculara Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar, yaradılan infrastruktur layihələri, həmçinin işğaldan zad olunmuş ərazilərdə görüləcək işlər barədə fikirlər çatdırılıb. Materiallar oxuculara Azərbaycan, gürcü, rus və ingilis dillərində təqdim olunub.

# Prezidentin işğaldan azad olunmuş torpaqlara səfəri dünyaya bir mesajdır!

*Prezident İlham Əliyev: "Yenə də azad edilmiş torpaqlardayıq. Torpaqların bərpası prosesi artıq başlamışdır"*



**Hərbi əməliyyatların bitməsindən sonra Prezident İlham Əliyevin mütəmadi olaraq işğaldan azad edilmiş rayonlara səfər etməsi dövlət başçısının bu məsələlərə nə dərəcədə həssas yanaşdığının sübutudur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında oldular. Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, dünyaya bir mesajdır.**

Və bu səfərlərlə dövlət başçımız bildirir ki, Azərbaycan 28 ildən sonra Qarabağı işğaldan azad etdik, Qarabağa qayıtdıq, Qarabağa sahibləndik. Bir daha Qarabağın onun olduğunu və bir daha bundan sonra kimsənin ona yiyələnə bilməyəcəyini göstərdi. Prezidentimizin "Qarabağ Azərbaycandır və nida" ifadəsi, eləcə də 44 günlük Vətən müharibəsində onun rəhbərliyi ilə Azərbaycan xalqının və Azərbaycan Ordusunun Qələbəsi bütün dünyaya göstərdi ki, biz bir qarış torpağımızı belə heç kəsə verən deyilik. Bu, dövlətimizin, xalqımızın, ordumuzun, milli birliyimizin Qələbəsidir. Bu, haqqın və ədalətin zəfər çalmasıdır.

### "Heç kim bizi bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

"Biz güclü iradə, cəsarət göstərərək istədiyimizə nail ola bildik. Onların Laçın rayonunu qaytarmaq fikirləri belə yox idi. Biz gəldiyim yolla gələrək, yol boyunca yerləşən bütün rayonları, kəndləri, şəhərləri azad edərək bax, buralara gəldik". Bu fikirləri Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Laçın rayonunun Güləbird kəndində çıxışı zamanı söyləyib.

"Laçın rayonunun cənub hissəsini işğalçılardan azad etdik, Güləbird kəndini azad etdik. Burada Səfiyan və Türklər kəndləri yerləşir, onları da azad etdik və Laçın dəhlizinə nəzarət etmək üçün hərbi plasdarm yaratdıq və artıq Laçın dəhlizi atəşimiz altında idi. Faktiki olaraq bu istiqamətdən hərəkət edərək biz strateji əməliyyatlarımızı aparmışdıq. Eyni zamanda, əks tərəfdən - Xocavənd rayonundan Şuşa şəhərinə gedərək, dağlardan, dərələrdən keçərək uğurlu əməliyyat apara bilmişik. Laçın rayonunun bax, bu cənub hissəsi hərbi əməliyyat nəticəsində azad edilmişdir. Biz döyüş meydanında düşməni məğlub etdik və tarixi ədaləti bərpa etdik", - deyə dövlətimizin başçısı vurğulayıb ki, biz tarixi ədaləti bərpa etdik: "Bu bayrağın altında Azərbaycan xalqına doğma Laçın diyarından müraciət edirəm. Bizim Qələbəmiz tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".





### "Biz hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın"

Dövlət başçısı bu gün Ermənistanı torpaqlarımızdan it kimi qovsaq da, yenə də bu düşmən, işğalçı dövlətdə revanşist qüvvələr baş qaldırmaq istəsələr də, anlamalıdırlar ki, buna imkan verilməyəcək: "Bu gün də Ermənistanda revanşist qüvvələr baş qaldırmağa çalışır. Azərbaycanı növbəti təxribatlarla, növbəti müharibə ilə hədələməyə çalışırlar. Onlar anlamalıdırlar ki, biz hər şeyə diqqət yetiririk, hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın. Biz onları məhv etmişik, edəcəyik də. Biz erməni faşizmini məhv etmişik. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Onları torpaqlarımızdan rədd etmişik. Ermənistan ordusunu demək olar ki, məhv etmişik. Ermənistan ordusu yoxdur, dağılıb. Həm texnika dağılıb, həm canlı qüvvə dağılıb. Özləri etiraf edirlər ki, müharibə zamanı onların 10 min fərarisi olubdur. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıbdır. Bu, xalqımızın, Ordumuzun yüksək mənəvi ruhunun təzahürüdür. Aparılan siyasətin təzahürüdür".

### "Biz döyüş meydanında Qələbə qazandıq. Biz bu torpaqları vuruşaraq işğalçılardan azad etmişik"

Prezident qeyd edib ki, biz döyüş meydanında Qələbə qazandıq. Biz bu torpaqları vuruşaraq işğalçılardan azad etmişik: "Ermənistanı məğlub edib məcbur etdik ki, noyabrın 10-da kapitulyasiya aktına imza atsın və Laçın, Kəlbəcər, Ağdam rayonlarını məcbur olub bizə qaytarsın. Çünki danışıqlar zamanı heç vaxt Laçın və Kəlbəcər rayonlarını bizə qaytarmaq istəmirdi. Danışıqlarda razılığa gəlməməsinin əsas səbəbi də məhz bunda idi. Əfsuslar olsun ki, Ermənistanın və onun bəzi xarici havadarlarının mövqeyi ondan ibarət idi ki, beş rayon Azərbaycana qaytarılsın, Azərbaycan bununla kifayətlənsin və Dağlıq Qarabağa nə vaxtsa müstəqillik verilsin, Kəlbəcər və Laçın rayonları Ermənistanın əbədi nəzarəti altında qalsın. Mən bu təklifi rədd etdim".

Ardı Səh. 5

# Prezidentin işğaldan azad olunmuş torpaqlara səfəri dünyaya bir mesajdır!

*Prezident İlham Əliyev: "Yenə də azad edilmiş torpaqlardayıq. Torpaqların bərpası prosesi artıq başlamışdır"*

Əvvəli Səh. 4

"Biz təklif etmişdik ki, bölgəmizin uzunmüddətli inkişafı, sabitliyin təmin edilməsi və müharibə risklərinin sıfıra endirilməsi üçün bölgədə nəqliyyat layihələrinin xüsusi rolu var və burada iştirak edən bütün ölkələr ancaq xeyir götürəcək, fayda götürəcək.

Dövlət başçısı səfəri zamanı Laçın rayonunun Güləbird kəndində çıxış edərkən söyləyib: "Azərbaycan Naxçıvanla, Türkiyə ilə birləşir. Eyni zamanda, Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər. Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı olacaq. İran ilə Ermənistan arasında dəmir yolu bağlantısı olacaq. Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Yəni, bütün bölgə ölkələri bundan ancaq xeyir görəcəklər".







Prezident deyib ki, artıq Rusiya ilə Türkiyə arasında Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə yüklər daşınmağa başlayıb: "Görün, biz nə qədər böyük uzaqgörənlik göstərmişdik, böyük iradə göstərmişdik. Eyni zamanda, maliyyə resurslarını səfərbər etmişdik və bu dəmir yolları bağlantılarını biz təmin edirik. Bu, ölkəmiz üçün lazımdır. Çünki bu, ölkəmizin geosiyasi əhəmiyyətini artırır, iqtisadi gücünü artırır. Çünki biz etibarlı tranzit ölkəsi kimi bundan böyük maliyyə gəliri əldə edəcəyik, eyni zamanda, bölgədə sabitliyin və sülhün təmin edilməsi üçün də bunun çox böyük əhəmiyyəti var".

## "Güləbird Su Elektrik Stansiyasının istismara verilməsinin çox böyük rəmzi mənası var"

Mənfur düşmənin işğal dövründə hər şeyi, o cümlədən bütünü su elektrik stansiyalarını dağıtdığını bildirərək deyib ki, düşmən bilməlidir ki, hər şeyi əvvəlkindən də yaxşı bərpa edəcəyik: "Mənfur düşmən də işğal dövründə bu stansiyalardan istifadə edib. Ancaq Ermənistan kapitulyasiyadan sonra 20 gün ərzində - dekabrın 1-nə qədər demək Kəlbəcər-Laçın zonasında su elektrik stansiyaları üçün təbii şərait çox əlverişlidir və vaxtilə burada bir çox stansiyalar olub. Mənfur düşmən də işğal dövründə bu stansiyalardan istifadə edib. Ancaq Ermənistan kapitulyasiyadan sonra 20 gün ərzində - dekabrın 1-nə qədər demək olar ki, bütün bu su elektrik stansiyalarını darmadağın edib",- deyən Prezident İlham Əliyev bildirib ki, qısa müddət zamanıda bütün işlər öz nəticəsini verəcək.

Güləbird Su Elektrik Stansiyasının da düşmən tərəfindən dağıdıldığını qeyd edən dövlətimizin başçısı deyib ki, verilən tapşırıqlar qısa müddət ərzində yerinə yetirildi və bu gün biz 8 meqavat gücə malik bu stansiyasının açılışını edirik: "Bu, azad edilmiş torpaqlarda istismara verilən birinci elektrik stansiyasıdır və bunun çox böyük əhəmiyyəti, böyük rəmzi mənası var. Biz qayıdırıq bu torpaqlara. Biz Kəlbəcər və Laçın rayonlarında ermənilər tərəfindən uzun illər ərzində qanunsuz istismar edilmiş, onlar tərəfindən dağıdılmış bütün su elektrik stansiyalarını bərpa edəcəyik. Düşmən təkcə Laçın rayonu ərazisində 5 su elektrik stansiyasını dağıdıb. Onların hamısı bərpa ediləcək. Kəlbəcər rayonunun ərazisində isə 12 su elektrik stansiyası yenidən qurulacaq. Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonlarında dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Bu, çox böyük generasiya gücüdür. Bu generasiya gücü ilə biz bu əraziləri bərpa edəcəyik, dayanıqlı enerji ilə təmin edəcəyik".

Dövlət başçımız hər səfərində mənfur düşmənin Azərbaycanın işğaldan aəad olan torpaqlarında etdikləri vəhşilikləri göstərməklə bir daha dünyaya işğalçı Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində işğal edilmiş torpaqlarımızda törətdiyi bütün vandal siyasətini dünyaya nümayiş etdirir: "Mən bəyan etmişdim ki, azad edilmiş torpaqlar "yaşıl enerji" zonası olacaq. Mən artıq xarici və yerli investorları dəvət etmişəm. Onu da bildirməliyəm ki, bütün əsas işləri dövlət olaraq biz özümüz görürük və görəcəyik",-deyən dövlət başçısı azad olunmuş ərazilərə səfəri zamanı Laçın rayonunun Güləbird kəndində çıxış edərkən bildirib: "Xarici və yerli investorlar investisiya qoymaqla həm öz biznes maraqlarını təmin edə bilərlər və həm də Azərbaycanı uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin etmək üçün öz sözlərini deyə bilərlər".

Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin çox böyük potensialı olduğunu qeyd edən Prezident deyib: "Zəngilan, Cəbrayıl rayonlarında daha çox Günəş enerjisinin böyük potensialı var. Artıq ilkin tədqiqatlar aparılıb və beləliklə, biz enerji generasiya güclərimizi, ötürücü xətlərimizi yenidən quraraq Qarabağı "yaşıl enerji" zonasına çevirəcəyik. Mən bu proqramı elan edəndə bunu nəzərdə tuturdum və bu gün birinci layihə - bax, orada gördüyünüz Güləbird Su Elektrik Stansiyası artıq istismara verilir".

## "Horadiz-Ağbənd dəmir yolunun istifadəsi Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında dəmir yolu bir-birinə bağlanacaq"

Səfər zamanı Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən tarixi əhəmiyyətli Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun təməl daşı qoyulması da xüsusi əhəmiyyətli məsələ idi. Bununla bağlı çıxış edən dövlət başçısı qeyd edib ki, bu dəmir yolunun çox böyük strateji əhəmiyyəti var: "İlk növbədə ona görə ki, bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Digər tərəfdən, bu dəmir yolu Naxçıvana gedəcək. Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa var. Artıq bu işlərə start verildi".

Prezidentin də qeyd etdiyi kimi, Horadiz-Ağbənd dəmir yolunun istifadəsi Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında dəmir yolunu bir-birinə bağlanacaq. Bu tarixi əhəmiyyətli kommunikasiya xəttinin açılışı bir zamanlar ermənilərin havadarlarının və işğalçıların xalqımıza qarşı məkrli planlarını məhv etmiş olacaq. Həmçinin bu dəmir yolu infrastrukturu Türkiyəyə qədər uzanacaq və beləliklə, Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaradılacaq: "Biz üç il yarım bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunu istismara verdik. Bu da tarixi nailiyyət idi. Tarixdə ilk dəfə biz Azərbaycanı və Türkiyəni dəmir yolu ilə birləşdirdik. İndi isə ikinci dəmir yolu çəkiləcək və eyni zamanda, bu yoldan bütün bölgə ölkələri istifadə edə bilərlər".

Dövlət başçısı, həmçinin, Azərbaycanın bölgədə ölkələr arasında kommunikasiya xətlərinin üzərində yerləşdiyini və bu istiqamətdə böyük işlərin görüldüyünü söyləyib. Prezident deyib: "Biz təklif etmişdik ki, bölgəmizin uzunmüddətli inkişafı, sabitliyin təmin edilməsi və müharibə risklərinin sıfıra endirilməsi üçün bölgədə nəqliyyat layihələrinin xüsusi rolu vardır və burada iştirak edən bütün ölkələr ancaq xeyir götürəcək, fayda götürəcək. Azərbaycan Naxçıvanla, Türkiyə ilə birləşir. Eyni zamanda, Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər. Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı olacaq. İran ilə Ermənistan arasında dəmir yolu bağlantısı olacaq. Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Yəni, bütün bölgə ölkələri bundan ancaq xeyir görəcəklər".

Beləliklə, Prezident İlham Əliyevin başçılığı ilə bölgədə yeni proseslər seyr etməkdəyik. Erməni işğalçıları torpaqlarımızdan qovulub, işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinə start verilib. Artıq 2021-ci il dövlət büdcəsində işğaldan azad olunan ərazilərdə bərpası və yenidənqurma işlərinin aparılması üçün maliyyə təminatı da yaradılıb. Azərbaycan rəhbərinin siyasi iradəsi, verdiyi vədlərlə əməllərinin vəhdəti belə deməyə əsas verir ki, çox keçməyəcək, işğaldan azad edilmiş torpaqlara həyat qayıdacaq, bu ərazilər yenidən çiçəklənəcək, bura təkcə ölkənin deyil, regionun ən inkişaf etmiş məskənlərindən birinə çevriləcək.

Bəli, dövlət başçımızın dediyi kimi: "Dünən Füzuli, Cəbrayıl, Xudafərin, sabah, birisi gün Hadrut, Xocavənd, Şuşa, Ağdam, Kəlbəcər, Laçın... Bütün Qarabağ! Bəli, biz gəlmişik, biz gəlirik, biz gələcəyik! Çünki Qarabağ bizimdir! Çünki Qarabağ Azərbaycandır! Çünki Qarabağ Azərbaycanındır!".

**RƏFİQƏ KAMALQIZI**

## YAP-ın üzvləri Qarabağ Dirçəliş Fonduna 500 min manat vəsait toplayıb

Yeni Azərbaycan Partiyası işğaldan azad edilmiş torpaqlarımızda dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə geniş quruculuq-bərpa və abadlıq işlərinin aparılması, təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə yaradılmış Qarabağ Dirçəliş Fonduna 500 min manat vəsait köçürüb. SİA-nın verdiyi məlumata görə, qeyd edək ki, bu vəsait partiyanın fəal üzvlərinin təşəbbüsü ilə fərdi ianəçilik hesabına formalaşıb.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası "Qarabağ Azərbaycandır" devizi ilə davam edən kampaniya çərçivəsində, eləcə də, Vətən müharibəsi dövründə Silahlı Qüvvələrə Yardım Fonduna və Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə yaradılmış YAŞAT Fonduna ianə etmiş, cəbhə bölgəsində erməni vandalizminin qurbanına çevrilmiş 500-dən artıq ailəyə humanitar yardım göstərib. YAP tərəfindən, həmçinin, ermənilərin raket zərbələri nəticəsində Gəncə şəhərində evləri dağılmış 13 ailəyə birdəfəlik maddi yardım göstərilmiş, bu terror nəticəsində valideynlərini itirmiş uşaqlara 18 yaşına çatana qədər aylıq 300 manat məbləğində təqaüd ödənilməsi barədə qərar qəbul edilib. Yeni Azərbaycan Partiyası, Vətən müharibəsi dövründə döyüşən əsgər və zabitlərimizin maddi təminatının daha da gücləndirilməsi, eləcə də, yaralılara göstərilən tibbi xidmətə dəstək istiqamətində də tədqirəlayiq humanitar tədbirlər həyata keçirib. Bütövlükdə, Yeni Azərbaycan Partiyası tərəfindən bu aksiyalara 455 min manat vəsait sərf edilib.

## İtkin düşən daha bir hərbçimizin şəhid xəbəri gəldi

Vətən müharibəsində itkin düşən Müddətdən Artıq Hərbi Qulluqçu, kiçik çavuş Anar Siyavuş oğlu Nurullayevin şəhid olduğu müəyyənləşib. Bu barədə "Qafqazinfo"ya şəhidin əmisi Ziya Nurullayev məlumat verib. O qeyd edib ki, hərbçi sabah doğulduğu kənddə torpağa tapşırılacaq: "Bizə Müdafiə Nazirliyindən məlumat verilib ki, şəhidimizin nəşi bu gün Sabirabad rayonuna göndəriləcək. Sabah saat 14:00-da isə doğulduğu Osmanlı kəndində dəfn olunacaq". Z. Nurullayevin sözlərinə görə, qardaşı oğlu müharibənin ilk günlərindən ön cəbhədə xidmət edib. Goranboy istiqamətində döyüşlərdə iştirak edən hərbçidən sentyabrın 30-dan bəri xəbər olmayıb. Şəhidin kimliyinin müəyyənləşdirilməsi üçün ailəsindən DNT analizi götürülmüşdü.

## Pakistanlı analitik: Azərbaycan Avrasiyanın enerji xəritəsini dəyişir

Nüfuzlu "Pakistan Observer" qəzetində "Azərbaycan Avrasiyanın enerji xəritəsini dəyişir" sərlövhəli məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, Pakistanın Qlobal və Strateji Araşdırmalar Mərkəzi İdarə Heyətinin üzvü, geosiyasi məsələlər üzrə analitik Mahmud Hasan Xanın müəllifi olduğu məqalədə Cənubi Qafqazın geosiyasi mənzərəsinin Azərbaycanın Ermənistan üzərində möhtəşəm qələbəsi ilə kəskin şəkildə dəyişdiyi, bölgənin ən böyük iqtisadiyyatına malik olan Azərbaycanın enerji mənbələrinin (istehsal, tədarük, nəqliyyat) şaxələndirilməsi və sosial-iqtisadi inkişaf baxımından daha da inkişaf etdiyi və Azərbaycanın Avrasiyanın enerji xəritəsini uğurla dəyişdirdiyi qeyd edilir. Vurğulanır ki, Trans Adriatik Boru Kəməri (TAP) ilə Avropaya təbii qaz tədarük etməklə Azərbaycan daha bir tarixi nailiyyətə imza atdı. Bu, həqiqətən də regionun enerji təhlükəsizliyi və sabitliyinin daha da möhkəmləndirilməsi baxımından irəliyə atılmış nəhəng addımdır. Cənub Qaz Dəhlizinin qlobal enerji təhlükəsizliyi sistemini gücləndirəciyini və Avropa qitəsinin Xəzər regionu ilə birləşdirilməsinə xidmət etdiyini yazan müəllif bu layihənin Azərbaycan strateji əhəmiyyətini daha da artırdığını bildirir.

Müəllif Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan Cənub Qaz Dəhlizinin seqmentləri olan "Şahdəniz-2", TANAP və TAP layihələri barədə ətraflı məlumat verərək bu boru kəmərləri zəncirinin Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunan təbii




qazı Türkiyəyə və həmin ölkədən də Avropaya çatdıracağını qeyd edir. Uzunluğu 3 min 500 kilometr olan Cənub Qaz Dəhlizi vasitəsilə ilkin mərhələdə Türkiyəyə 6 milyard kubmetr, Avropaya isə 10 milyard kubmetr Azərbaycan qazının nəqli planlaşdırılır.

Məqalədə Azərbaycanın meqaregional enerji layihələrinin konstruktiv iştirakçısı olduğu, o cümlədən bu layihələrin uğurla həyata keçirməsi ilə ölkənin enerji sahəsində əməkdaşlığın inkişafına öz töhfəsini verdiyi bildirilir. Pakistanlı analitik qeyd edir ki, Azərbaycanın Avropa İttifaqının qaz tədarükünü şaxələndirmək istiqamətindəki səylərini dəstəkləməsi və Cənub Qaz Dəhlizi layihəsini reallaşdırması təqdirəlayiqdir. "TAP boru kəməri layihəsinin reallaşmasını bu gün Avrasiyanın coğrafiyasını və enerji xəritəsini dəyişən Azərbaycanın iqtisadi diplomatiyasının növbəti qələbəsi kimi qiymətləndirirəm", - deyə müəllif sonda vurğulayır.

## Rusiyalı ekspert: Münhendə açıq dialoqun yekunu Azərbaycan Prezidentinin qəti qələbəsi oldu

**2020-ci il fevralın 15-də, Azərbaycan və Ermənistan arasında hərbi əməliyyatların yenidən başlanmasından əvvəl, lakin rəsmi Yerevanın "Arsax" (Dağlıq Qarabağ) - Ermənistandır və nöqtə" şüarını elan etməsindən sonra İlham Əliyevin və Nikol Paşinyanın müharibədən əvvəlki sonuncu birbaşa dialoqu mahiyyətcə, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli üzrə danışıqların finalı oldu.**

Bu barədə AZƏRTAC-ın müxbiri ilə söhbətində ekspert, Rusiyanın "Vestnik Kavkaza" informasiya agentliyinin baş direktorunun müavini Andrey Petrov bildirib. Ekspert qeyd edib ki, o vaxt bunu qabaqcadan bilmək çətin idi. Lakin bugünkü mövqedən baxanda görmək olar ki, Münhen görüşü ATƏT-in Minsk qrupunun himayəsi ilə 30 illik siyasi-diplomatik səylərə yekun vurdu.

A.Petrov deyib: "Görüş, ilk növbədə, açıq xarakterinə görə öz-özlüyündə unikal idi: Azərbaycan və Ermənistan rəhbərləri bağlı qapılar arxasında deyil, beynəlxalq forumda panel diskussiyası formatında görüşürdülər və həm forum iştirakçıları qarşısında, həm də onların dialoqunu onlayn izləyən internet auditoriyası qarşısında çıxış edirdilər. Beləliklə, onlar Dağlıq Qarabağ münaqişəsi üzrə təkcə öz dövlətlərinin mövqelərini deyil, həm də özlərinin xeyrinə olan dəlilləri maksimal geniş şəkildə səsləndirmək fürsəti qazandılar. Eyni zamanda, artıq bəlli idi ki, yeni Ermənistan - Paşinyan Ermənistanı Qarabağ məsələsinə köhnə, Koçaryan-Sarkisyan müxalifətçi yanaşmasını saxlamağa qərar verib. Bu, danışıqlar prosesini növbəti dəfə çıxılmaz vəziyyətə doğru aparırdı və Münhendə Əliyev ilə Paşinyanın görüşü belə yanaşmanın perspektivsiz olmasını bütün dünyaya nümayiş etdirmək üçün bir şans idi".



Agentliyin həmsöhbətinin fikrincə, Münhendə açıq dialoqun yekunu faktları əminliklə səsləndirən və rəsmi beynəlxalq sənədlərə istinad edən Azərbaycan Prezidentinin qəti qələbəsi oldu. Prezident Əliyevin sübutları ona görə tutarlı idi ki, Ermənistanın baş naziri mifik zamanlardan danışarkən hamıya məlum olan feykləri fakt kimi qələmə verməyə çalışır və sənədlərin müddəalarını açıq şəkildə yalandan interpretasiya edir, bununla da cavabında təcavüzkar siyasətdən miras qalmış bəhanələrin tam dəyərə malik olmamasını ifşa edirdi. Prezident İlham Əliyev Nikol Paşinyanın ədiyi hər yalanı asanlıqla təkzib edərək dünyaya göstərirdi ki, Ermənistan yalnız bir şeyə - onun tərəfindən törədilən hərbi cinayətlərə görə cəzasızlığa cəhd edir. Nəticədə, bu dialoqun sonuna yaxın tamaşaçılar erməni liderinə sadəcə gülürdülər, çünki o, yalnız məsxərəyə qoyulmağa layiq idi.

Ekspert vurğulayıb: "Azərbaycan və Ermənistan arasında jurnalist nümayəndələrinin payız mübadiləsindən, uzun müddət ərzində ilk dəfə olaraq Azərbaycan nümayəndələrinin işğal edilmiş ərazilərə ilk səfərindən əvvəl keçirilən görüş keçmiş qeyri-konstruktiv proseslə yaxın gələcəkdə normal dialoqa çıxa bilmək imkanı arasında bir növ körpü idi. Lakin sonrakı aylar göstərdi ki, Ermənistanın mövqeyində yaxşılığa doğru heç nə dəyişməyib, əksinə, Paşinyan növbəti dəfə darmadağın olandan sonra Yerevanın işğalçı siyasəti yalnız aqressivləşdi, hərbi sahədə isə gərginliyin genişləndirilməsi kursuna istiqamət verildi. Əgər erməni diplomatlar artıq birbaşa hər hansı vəziyyəti, hətta ən rəsmi, danışıqlar masası arxasında əmələ gələn, o cümlədən Rusiya tərəfindən dəstəklənən vəziyyəti təkzib edirdilərsə, işğalçı qoşunlara "yeni müharibə - yeni ərazilər" doktrinası təqdim edilirdi. Ötən ilin yayında Azərbaycanın Tovuz rayonuna hücum zamanı onlar sözdən əməli fəaliyyətə keçdilər. ATƏT-in Minsk qrupu Ermənistanın faktlarla, sənədlərlə təsdiqlənən transsərhəd təcavüzünə heç cür reaksiya verməyib formal cavabla kifayətlənəndə məlum oldu ki, sülh yolu ilə nizamlanma təkcə münaqişə tərəfləri arasında deyil, vasitəçi qurumda da de-fakto mövcud deyil".

"Buna görə də, Əliyev və Paşinyanın Münhen görüşü həqiqətən Qarabağa dair danışıqların son raundu oldu. Bu danışıqlarda onların diskussiyalı formatı sayəsində Ermənistan açıq şəkildə məğlubiyyətə uğradı, Azərbaycan isə qələbə qazandı. Lakin uduzan tərəf bundan səhv nəticələr çıxardı, belə hesab etdi ki, siyasi-diplomatik istiqamətdə müvəffəqiyyətsizlik səbəbindən hərbi sahədə uğura nail ola biləcək. Doqquz aydan sonra Azərbaycan Qarabağ müharibəsini işğalçı erməni qüvvələrinin darmadağın edilməsi ilə başa çatdırdı", - deyə ekspert bildirir.

Rusiyalı jurnalist Prezident İlham Əliyevin 2019-cu ildə Valday Forumundakı çıxışını da xatırladaraq, bu çıxışı Qarabağ probleminin ərazi bütövlüyü çərçivəsində həlli üzrə Azərbaycanın beynəlxalq fəaliyyətində ən mühüm dövr adlandırıb.

A.Petrov deyib: "Azərbaycan tərəfi o vaxt Ermənistan tərəfindən Yerevanda yeni hakimiyyət orqanlarının Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinin hər hansı marşrutundan imtina faktı qarşısında qoyulmuşdu və Bakı bu kimi provokasiyalı və münaqişənin eskalasiyasına aparan davranışa dəqiq cavab verməli idi. Azərbaycan Prezidentinin "Valday"dakı nitqi belə cavab oldu. Nitqdə Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" şüarının qarşısına "Qarabağ Azərbaycandır və nida işarəsi" ədalətli cavabı qoyuldu. Bununla İlham Əliyev elan etdi ki, Azərbaycan təcavüzkar dövlətin hansısa qeyri-konstruktiv danışıqlara getmək arzusunda olmaması, onun siyasi-diplomatik prosesi daim imitasiya etməsi və beynəlxalq vasitəçilər tərəfindən bu imitasiyaya yol verilməsi ilə barışmaq niyyətində deyil".

Politoloqun fikrincə, 2019-cu ilin oktyabrından 2020-ci ilin noyabrınadək il ərzində baş verən hadisələrin tarixi göstərdi ki, bu, yeganə düzgün cavab idi. A.Petrov sonda yazır: "Bakı bütün bu dövr ərzində faktlara və rəsmi sənədlərə əsaslanaraq açıq hərəkət edib, erməni tərəfindən gələn daimi feyk axınını ifşa edib, öz vəzifələrini yerinə yetirib və haqlı olaraq Yerevandan və vasitəçilərdən öz üzərlərinə düşən vəzifələri yerinə yetirmələrini tələb edib. Bununla yanaşı, Azərbaycan Ermənistan qoşunlarının güc tətbiq etmək cəhdlərinə müvafiq cavab verib. Buna görə, sentyabrın 27-də Ermənistan sərhədyanı yaşayış məntəqələrinə irimiqyaslı hücuma başlayanda və Azərbaycan Ordusu təcavüzkarın sülhə məcbur edilməsi üzrə əks-hücum əməliyyatına keçəndə, Cənubi Qafqazda nüfuza malik olan beynəlxalq oyunçuların heç birinin Azərbaycana heç bir obyektiv sualı olmadı. Bu, mənim fikrimcə, son illər İlham Əliyevin Qarabağ siyasətinin mühüm yekunu oldu: Azərbaycan Respublikası həm mövqe baxımından, həm də dəlillər baxımından özünü qüsursuz elçi qismində göstərdi. Buna görə də bütün müstəqil müşahidəçilər üçün aşkar idi ki, Bakı öz ərazilərində işğalçılara və hərbi cinayətkarlara qarşı ədalətli müharibə aparır. Yerevana satılmış siyasətçilər və KİV-lər vəziyyəti tamamilə başqa cür təsvir etməyə çalışırdılar, lakin Cənubi Qafqaz üçün mühüm qərarların qəbul edildiyi ölkələrin mərkəzlərində Bakının haqlı olması aşkar idi. Bu da Qarabağ müharibəsinin Azərbaycanın qələbəsi ilə başa çatmasına kömək oldu".

# Cənub Qaz Dəhlizi tərəflər üçün nələri vəd edir?

**Cənubi Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin yeddinci iclası özündən əvvəlki iclaslardan seçildi. Aydın məsələdir ki, əvvəlki 6 iclas layihənin icrasının gedişatı, qarşıya çıxan müxtəlif məsələlərin müzakirəsini əhatə edirdi. Lakin ötən ilin son günündə Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) istifadəyə verilməsi ilə Cənub Qaz Dəhlizi layihəsi faktiki olaraq tamamlanmış oldu. Düzdür, yeddinci iclasın Cənub Qaz Dəhlizi çərçivəsində son bir ildə görülmüş işlərlə bərabər gələcək perspektivlərin müzakirəsi bəlli idi. Lakin bu perspektivlərin tərəflər üçün nələri vəd etməsi olduqca maraq doğuran məsələdir.**

Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Kadri Simsonin iclasdakı çıxışında deyib ki, 2050-ci ilə qədər Avropada iqlim neytrallığı olmalıdır və gələn 10 il ərzində emissiyaların azaldılması ən azı 55 faizə çatmalıdır: "Bu baxımdan biz qazın rolunu əvəzedici yanacaq kimi görürük. Avropa İttifaqı Şurası bu yaxınlarda etiraf etmişdir ki, qaz keçid yanacağa kimi enerji təhlükəsizliyini və əlçatanlığı saxlanmaqla qara kömür kimi havanı çirkləndirən enerji mənbələrindən tədricən uzaqlaşmanın təmin edilməsində öz rolunu oynayacaqdır. Eyni zamanda, gələcək "yaşıl razılaşma" ilə dünyada qaz de-karbonlaşdırılmalıdır və öz yerini hidrogenin və digər de-karbonlaşmış yanacağın tətbiqi üçün təhvil verməlidir".

K.Simsonin vurğulayıb ki, Avropa İttifaqı metan emissiyaları sayəsində tədbirlərə xüsusi önəm verir: "Biz bilirik ki, metan qısa perspektivdə CO2-dən qat-qat zərərlidir. Metan emissiyaları bütün istilik qazların emissiyasının 50 faizə yaxın hissəsini təşkil edir".




Belə görünür ki, Avropa İttifaqı Cənub Qaz Dəhlizinə qitənin enerji təhlükəsizliyi prizmasından baxsa da, Qərbi Balkan regionuna gələndə buraya müəyyən şərtlər əlavə olunur. K.Simson "Bu layihə Qərbi Balkan regionu üçün etibarlı və enerji çıxışının təmin edilməsinə necə töhfə verə bilər?" sualını verərək ardınca "Çünki həmin region de-karbonlaşmış sistemə doğru tədricən addımlayır, kömürdən uzaqlaşır və öz güclü potensialını inkişafda olan, bərpaolunan enerji üçün istifadə edir",-deyə cavablandırıb. Onun sözlərinə görə, Azərbaycan qazının günlərin bir günündə Qərbi Balkanlara çatması bir sıra aspektlərdən asılı olacaq. Əsas aparıcı qüvvə bazara əsaslanan investisiya qərarları olacaq.

Avropa Komissiyasının qonşuluq siyasəti və genişlənmə danışıqları üzrə komissarı Oliver Varhelyi də deyib ki, təbii qazın Qərbi Balkanlarda faydalı enerjiyə keçid sahəsində mühüm rolu var. Lakin hazırda həmin regionda bununla bağlı çətinliklər mövcuddur, əgər bu məsələlər həmin regionda həll olunarsa, belə bir keçid daha asanlıqla baş tutacaq: "Bunun baş verməsi üçün bizə infrastruktur lazımdır. Bu səbəbdən iqtisadi investisiya planı bir-biri ilə bağlı 5 sahəyə yönəlib və orada Qərbi Balkanlara qazın təchizatı xüsusi yer tutur. Təbii ki, burada təchizatın təhlükəsizliyi və rəqabət nəzərdən keçiriləcək, müvafiq bazarlarda daha etibarlı və qiymət baxımından daha əlçatan şərait yaradılacaq... Yeni qaz təchizat mənbələri həmin regionda qaz bazarının canlanması deməkdir".

Bir sözlə, Avropa İttifaqı Cənub Qaz Dəhlizinin genişləndirilməsinə "biz qazın rolunu əvəzedici yanacaq kimi görürük" kimi ifadə, eyni zamanda, infrastruktur, təchizatın təhlükəsizliyi, qiymət kimi amillərlə cavab verməkdədir.

Azərbaycan tərəfi isə hesab edir ki, TAP-ın başa çatdırılması İonik-Adriatik boru kəmərinin inşasına imkan yaradır. Artıq Qərbi Balkan ölkələri ilə anlaşma memorandumları da imzalanıb. Prezident İlham Əliyev sözügedən iclasdakı nitqində bildirib ki, İonik-Adriatik boru kəməri həyata keçirildikdən sonra Azərbaycan təchizat marşrutlarını şaxələndirmək imkanı əldə edəcək və Qərbi Balkan dövlətləri üçün də yeni imkanlar yaradacaq.

Söhbət ondan gedir ki, Cənub Qaz Dəhlizi təkcə marşrutların deyil, həm də mənbələrin şaxələndirilməsindən ibarətdir. Bu, olduqca vacib məsələdir və real şaxələndirmə deməkdir. Üstəlik Azərbaycan qaz ehtiyatları hesabına bu Dəhlizdən enerji nəqlini artırmaq imkanına malikdir. Elə Qərbi Balkan ölkələrinə qaz nəqlinin nəzərdə tutulması da bu imkandan irəli gəlməklə bazarların şaxələndirilməsinə imkan verib.

Eyni zamanda, Cənub Qaz Dəhlizi digər mənbələrdən də Avropaya qaz ixracına imkan verir. Bu baxımdan Cənub Qaz Dəhlizi Xəzər dənizinin qazını Avropaya yeni marşrut və mənbə kimi çatdırmaqla qalmır, digər mənbələri də infrastruktur baxımından əlçatan edir. Qaz təchizatında məhdud sayda mənbədən və marşrutdan asılılığı azaltmağa çalışan Avropa ölkələri üçün bu, birnömrəli məsələdir.

Yeri gəlmişkən deyək ki, ötən ilin son günündən etibarən Azərbaycandan qaz idxal etməyə başlamış İtaliya artıq onun bəhrəsini görüb. Belə ki, K. Simsonin məlum çıxışında deyib ki, Cənub Qaz Dəhlizi əhaliyə daha çox seçim və rəqabəti təmin etməkdə kömək edir: "Faktiki olaraq, biz İtaliyada bu ilin əvvəlində qaz qiymətlərinin artıq aşağı düşdüyünü görürük".

Ekspertlərin fikirlərinə görə, gələcəkdə həm Xəzəryanı dövlətlər, yəni Türkmənistan, Qazaxıstan kimi ölkələrin təbii qazının bu marşrutla daşınması mümkün ola bilər. Digər tərəfdən, Şərqi Aralıq dənizindən çıxarılacaq təbii qaz, əsasən də İsrailin təbii qazı gələcəkdə bu marşrutla daşına bilər. Eyni zamanda, Yaxın Şərq ölkələri də buraya misal göstərilə bilər. Bu da öz növbəsində Cənub Qaz Dəhlizini adıçəkilən ölkələr üçün hazır infrasruktura çevirməklə onlar üçün Avropaya qaz ixracı perspektivi yaradır.

Avropa Komissiyasının enerji məsələləri üzrə komissarının "biz qazın rolunu əvəzedici yanacaq kimi görürük" dediyi kimi, Azərbaycan da gələcək inkişafını təkcə Avropaya qaz nəqlində görmür. Artıq Azərbaycanın da bərpa edilən enerjiyə dair planları var. Prezident İlham Əliyev qeyd edib ki, ölkəmiz hazırda dünyanın aparıcı enerji şirkətləri ilə danışıqlar mərhələsindır: "Biz artıq onların ikisi ilə inşaat üçün zəruri sənədləri imzalamışıq. Bunların biri günəş, digəri isə külək enerjisi stansiyalarıdır ki, onların toplam gücü 440 meqavatdır. Bu layihələr 100 faiz xarici sərmayə hesabına icra olunacaq".

Bununla yanaşı, işğal edilmiş ərazilərimizin azad olunmasından sonra həmin ərazilərdə günəş, külək və su ehtiyatları vasitəsilə elektrik enerjisinin istehsalı üçün yeni imkanlar yaranıb. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfərləri çərçivəsində Laçın rayonunun Güləbird kəndində Su Elektrik Stansiyasının açılışı olub. Bu, işğadan azad edilmiş ərazilərdə açılışı olan ilk elektrik stansiyası olmaqla bu ərazidə bərpa olunan enerjiyə verilən əhəmiyyəti bir daha nümayiş etdirir. Təsadüfi deyil ki, ölkə başçısı işğaldan azad edilmiş torpaqları "yaşıl enerji" zonası adlandırıb.

Nəticə etibarilə Cənub Qaz Dəhlizi növbəti mərhələyə keçid etməklə tərəflərə qeyd edilən yeni perspektivlər yaradır. Beləliklə də "yaşıl razılaşma"nın reallaşıb-reallaşmayacağından asılı olmayaraq Cənub Qaz Dəhlizi Avropa üçün uzun müddət aktuallığını qoruya biləcək.

***Ceyhun Piriyev***

# "CQD Avropanın enerji təchizatında əhəmiyyətli rol oynayacaq"

**"Cənub Qaz Dəhlizi özlüyündə çox möhtəşəm layihədir. Azərbaycan Prezidenti İlham Əliyev ilk dəfə bu layihəni həyata keçirmək barədə təşəbbüslə çıxış edəndə çoxları üçün bu uzaq gələcəkdə reallaşa biləcək bir layihə kimi görünürdü. Amma bu heç də belə olmadı.**

Cənab Prezident bu məsələdə çox böyük qətiyyət göstərdi və nəhəng layihənin tez bir zamanda həyata keçirilməsinə nail oldu. Cənub Qaz Dəhlizi layihəsi Avropanın enerji təchizatının diversifikasiyasında əhəmiyyətli rol oynayacaq. Belə ki, bu vaxta qədər Avropanın enerji təchizatı məhdud sayda olan mənbələrdən həyata keçirilib. Azərbaycan Avropa ölkələrinin "mavi yanacaq"la təchizatında strateji önəm daşıyan layihənin



işə salınmasına nail oldu və bununla da, Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verdi". Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü Sevil Mikayılova deyib.

Deputatın sözlərinə görə, CQD Azərbaycanla Avropa Birliyi arasında mövcud əməkdaşlığa böyük təkan verəcək: "Cənub Qaz Dəhlizi böyük potensiala malik olan bir layihə kimi nəzərdən keçirilir. Pandemiya ili olmasına baxmayaraq, 2020-ci ilin sonunda Cənub Qaz Dəhlizinin son seqmeti TAP istifadəyə verildi. Avropanın enerji strategiyasının həyata keçirilməsində Azərbaycanın iştirakı bu arealda iqtisadi anlamda yeni reallıqlar yaradacaq, təbii qaz bazarında fərqli rəqabət mühiti formalaşdıracaq".

S.Mikayılova vurğulayıb ki, ümumilikdə Azərbaycanın təbii qaz ehtiyatları 3,7 trilyon kubmetr həcmində dəyərləndirilir: "Lakin gələcəkdə Cənub Qaz Dəhlizinin mövcud potensialının genişləndirilməsi gözlənilir. Bölgədə böyük qaz ehtiyatlarına malik olan ölkələrin olması yeni qaz kəməri üçün əlavə perspektivlər vəd edir. Avropa ölkələrinin ildən-ilə təbii qaza artan ehtiyacını nəzərə alaraq, kəmərin AB-nin enerji təhlükəsizliyinin möhkəmləndirilməsində irəliyə doğru mühüm addım olacaq. Gələcəkdə TAP-ın birləşdirici kəmərlərlə şaxələndirilməsi isə cənub-şərqi Avropaya mavi yanacaq ötürməklə, bu ölkələrin kömürdən asılılığını azaldaraq zərərli tullantıların ətraf mühitə mənfi təsirlərini də eyni zamanda azaldacaq".

***Aysel Məmmədova***

## Giorgi Qaxariya: Cənub Qaz Dəhlizi Azərbaycanı və Gürcüstanı beynəlxalq miqyaslı oyunçuya çevirib



"Şahdeniz" yatağından Avropaya kommersiya məqsədli qaz nəqlinin başlanması Gürcüstan üçün də mühüm əhəmiyyət kəsb edir. Bu layihə Gürcüstanın enerji təhlükəsizliyində və iqtisadi inkişafında mühüm yer tutur. Bu sözləri jurnalistlərə müsahibəsində Gürcüstanın Baş naziri Giorgi Qaxariya söyləyib.

Onun sözlərinə görə, Cənub Qaz Dəhlizinin iqtisadi məqsədi Avropa bazarında rəqabətin gücləndirilməsidir. Bu layihənin inkişafının həm də siyasi əhəmiyyəti var. Bu günə qədər Azərbaycan, Gürcüstan və digər iştirakçı dövlətlər regional əhəmiyyətli qaz tranziti ölkəsi idisə, indi artıq beynəlxalq miqyaslı oyunçuya çevriliblər.

## Xorvatiya: Bu layihə Avropa üçün təhlükəsiz şəkildə qaza çıxışı təmin edəcək



"Cənub Qaz Dəhlizi" Avropaya tədarükün təhlükəsizliyinin təmin olunmasında oyunun qaydalarını dəyişir. "İki sahil" Xorvatiyanın İqtisadiyyat və Dayanıqlı İnkişaf Nazirliyinə istinadən xəbər verir ki, tədarükün şaxələndirilməsi və təhlükəsizliyi Avropa İttifaqının enerji sahəsində müzakirə olunan iki vacib mövzudur:

"Cənub Qaz Dəhlizi" həm Xorvatiya, həm də Cənub-Şərqi Avropaya tədarükün şaxələndirilməsi və təhlükəsizliyini təmin edəcək. Bu, Asiya tədarükün təhlükəsizliyini təmin olunmasında oyunun qaydalarını dəyişir. Bu layihə birmənalı şəkildə bütün Avropa üçün təhlükəsiz şəkildə qaza çıxışı təmin edəcək".

**Ermənistanla Azərbaycan arasında Avropanın ən uzunmüddətli ərazi münaqişəsi 44 günlük qanlı müharibə ilə başa çatıb. Tərəflər ötən il noyabrın 10-da Rusiyanın vasitəçiliyi ilə üçtərəfli bəyanat imzalayıb. Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ regionu və ona bitişik 7 rayondan silahlı qüvvələrini çıxarması, məcburi köçkünlərə geri qayıtmaq hüququnun verilməsi razılaşmanın əsas nəticəsidir. Son 30 ildə regional sabitliyə məhz bu problemlər ciddi əngəl yaradırdı.**




# Bayden Ermənistanla Azərbaycan arasında dayanıqlı sülhə necə nail ola bilər?

Hərbi əməliyyatlardan sonra meydana gəlmiş yeni regional düzən Rusiya ilə Türkiyə arasında təhlükəsizlik sahəsində əməkdaşlığa əsaslanır. Üçtərəfli bəyanata əsasən, Dağlıq Qarabağ və regionu Ermənistanla birləşdirən dəhlizə Rusiya sülhməramlıları yerləşdirilib. Ümumilikdə atəşkəsə isə Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi nəzarət edir. Bu, tarixdə NATO üzvünün postsovet ölkəsi ilə birgə regional təhlükəsizliyin monitorinqində iştirak etdiyi ilk haldır.

Maraqlıdır ki, ATƏT-in Minsk qrupunun (münaqişənin sülh yolu ilə həlli bu quruma həvalə olunmuşdu) həmsədrləri olan ABŞ ilə Fransa mühüm əhəmiyyət kəsb edən bu regional diplomatik səylərdə iştirak etmir. Bu, çətin ki, təsadüfü olsun. Vəziyyətin belə cərəyan etməsində əsas amil Vaşinqtonun Qarabağ problemindən uzaq durması, Parisinsə istəksiz olmasıdır. Üstəlik, Minsk qrupu son 26 ildə effektli fəaliyyət göstərməmiş, nəticədə münaqişənin diplomatik həlli "dalana dirənmişdi".

## Ardıcıl olmayan siyasətlə əlaqəsizlik arasında

ABŞ son 3 prezidentinin dövründə bu regionla bağlı ardıcıl siyasət yürütməyib. Halbuki, Vaşinqtonun regionda vacib maraqları var. Buraya təhlükəsizlik və iqtisadiyyat, həmçinin Gürcüstan və Azərbaycandan keçərək Əfqanıstana uzanan, strateji əhəmiyyət kəsb edən Şimal Təchizat Yolunun qorunması, ABŞ şirkətlərinin maraqları, ticarət əlaqələri, investisiyalar, regional sabitliyin müdafiəsi, "dondurulmuş münaqişə"lərin alovlanmasının qarşısının alınması, demokratik dəyişikliyə və daha yaxşı idarəçiliyə dəstək, Azərbaycan, Ermənistan və Gürcüstanın beynəlxalq inteqrasiya ilə bağlı səylərinə yardım və s. daxildir.

ABŞ administrasiyaları bu hədəflərin bəzilərinə digərlərini qurban verməklə nail olub. Eyni zamanda, onlar heç zaman bu bölgə ilə bağlı prioritetləri açıq şəkildə qoymayıb. Doğrudur, Vaşinqton regional inteqrasiya, enerji, ticarət və investisiya sahələrində bəzi siyasi hədəflərinə çatıb. Amma əsas məqsədə nail olunmayıb. Söhbət bölgədəki "dondurulmuş münaqişə"lərin sülh yolu ilə həllindən gedir.

Üstəlik, Vaşinqtonun ardıcıl olmayan regional siyasəti onunla Azərbaycan, Gürcüstan və Ermənistan arasında müəyyən ziddiyyətlərə də yol açıb. Vaşinqton bu bölgədə əsas diqqəti Tbilisiyə ayırır. Gürcüstan ABŞ-ın bu regionla bağlı siyasətində əsas yeri tutur. Azərbaycanla Ermənistana gəlincə, Vaşinqton ABŞ-dakı erməni lobbisinin təzyiqləri nəticəsində Yerevana daha çox üstünlük verib. Buraya diplomatik dəstək, təhlükəsizlik və iqtisadi yardımlar da daxildir. Bütün bunlar ABŞ-Ermənistan strateji dialoq platforması çərçivəsində həyata keçirilib. Bəli, Birləşmiş Ştatların keçmiş administrasiyaları Ermənistan-Azərbaycan münaqişəsinin davam etdiyi, Yerevanın xarici siyasətdə tamamilə əks istiqamət tutduğu bir şəraitdə, üstünlüyü məhz Ermənistana verib.

Doğrudur, son 3 administrasiya Bakının Vaşinqtonla əməkdaşlığını da yüksək qiymətləndirib. Buraya regional sabitlik, Əfqanıstanla bağlı siyasət, enerji layihələri, ixracat, ikitərəfli əlaqələr daxildir. Bu məsələlərdə qarşılıqlı münasibətlər hər zaman sabit olub. Amma bu iki ölkə arasında əlaqələr heç zaman Vaşinqtonun Ermənistan və Gürcüstanla əlaqələri səviyyəsinə çatmayıb. Nəticədə Azərbaycan cəmiyyətində ABŞ-ın Dağlıq Qarabağ münaqişəsilə bağlı mövqeyi, regional strategiyası ilə bağlı suallar yaranıb.

## Yeni regional siyasət

İndi ABŞ-ın regionda uğur qazanması əsasən onun Yerevanla Bakı arasındakı barışığa necə yanaşmasından asılı olacaq. Bölgədə hərbi əməliyyatlar başa çatıb. Odur ki, Vaşinqtonun bu regionla bağlı, nəhayət, ardıcıl siyasət yürütməsinin vaxtıdır. Bu siyasətin təməlində isə Ermənistan-Azərbaycan münaqişəsinin birdəfəlik həlli, regional iqtisadi inteqrasiya durmalıdır. Bayden administrasiyası bu mürəkkəb vəziyyətdə yeni addımlar ata bilər.

Birincisi, ABŞ ənənəvi siyasətindən imtina etməlidir. O, regiondakı münaqişələrin "dondurulması" deyil, onları həllinə çalışmalıdır. Odur ki, Vaşinqtonun Yerevanla Bakı arasındakı razılaşmanın tam yerinə yetirilməsi istiqamətində səyləri artırmasına ehtiyac var. Tərəflər arasında imzalanmış bəyanat onsuz da ATƏT-in Minsk qrupunun təklif etdiyi baza prinsiplərinə uyğundur. Amerikalı siyasətçilər anlamalıdır ki, Azərbaycan Dağlıq Qarabağsız özünü təhlükəsizlik, coğrafi və iqtisadi nöqteyi-nəzərdən tam həyat qabiliyyətli dövlət kimi görmür. Odur ki, Azərbaycanın milli təhlükəsizliklə bağlı vacib saydığı məqamlar, həmçinin Dağlıq Qarabağdakı etnik azlığın hüquqları nəzərə alınmaqla (məsələn, onlara mədəni muxtariyyət vermək olar), mərhələli proses aparılmalıdır. Bu zaman bir çox əlavə razılaşmalar da imzalana bilər.

Şimali İrlandiya ilə bağlı sülh prosesi əslində, iki ölkə arasında həqiqi barışıq prosesinin necə uzun və çətin olduğunun nümunəsidir.

İkincisi, Vaşinqton Ermənistan-Azərbaycan münaqişəsinə ayrıca problem kimi baxmalıdır. Yəni o, bu münaqişəyə ABŞ-ın Türkiyə və ya Rusiya ilə pisləşən əlaqələrindən, həmçinin NATO-Türkiyə, Rusiya-Türkiyə, yaxud Türkiyə-Ermənistan münasibətlərindən ayrılıqda nəzər yetirməlidir. ABŞ-dakı bəzi qanunvericilərin və erməni lobbisinin təklif etdiyi kimi, bu problemi geosiyasətə və xarici oyunçulara bağlamaq kövrək sülh prosesi ilə bağlı danışıqlar imkanını məhdudlaşdıracaq. Bu, diqqəti əsas məsələlərdən yayındıra da bilər: Ermənistanla Azərbaycan arasında barışıq, müharibədən sonra genişmiqyaslı bərpaetmə işlərinin həyata keçirilməsi və məcburi köçkünlərin qayıtması və s. kimi.

Üçüncüsü, ABŞ neytral və qərəzsiz vasitəçi olmağa çalışmalı, ermənipərəst mövqe sərgiləməkdən çəkinməldir. Bu gün həm Vaşinqton, hm də Moskva Bakı ilə Yerevanın qəbul etdiyi, inandığı qlobal gücdür. Odur ki, amerikalı siyasətçilər bu inamın zəifləməsinə imkan verməməli, əksinə, onu daha da gücləndirməlidirlər. Onlar ABŞ-ı Bakıya təhlükəsizlik sahəsində göstərilən yardıma yenidən baxmağa, yaxud "Dağlıq Qarabağ Respublikası"nın tanınmasına çağırışlar etməməlidirlər. Əks təqdirdə, Azərbaycan cəmiyyəti bu çağırışları ədalətsizlik və ABŞ-ın Ermənistanın ərazi iddialarını dəstəkləməsi kimi qəbul edəcək. Bu isə Vaşinqtonun regionun gələcəyi ilə bağlı istifadə etdiyi yumşaq gücünün və təsirinin ciddi şəkildə azalması ilə nəticələnəcək.

Dördüncüsü, ABŞ Azərbaycanın başçılıq etdiyi, Cənubi Qafqazı Avropa və Şərqi Asiya ilə, xüsusən Çinlə birləşdirən nəqliyyat və enerji layihələrini dəstəkləməyə davam etməlidir. Qarşılıqlı iqtisadi asılılıq və sülhün iqtisadi imkanlarla vəhdəti regionda sülhün bərqərar olması şansını artıracaq. Məsələn, quru yolla dəhlizlər şaxələnəcək və s. Ermənistan, Azərbaycan və Rusiyanın 2021-ci il yanvarın 11-də imzaladığı üçtərəfli bəyanatda bu məqam da yer alır. Bəyanata əsasən, regional dəmir yolları əlaqələri açılacaq, bölgənin iqtisadiyyatını birləşdirəcək yeni nəqliyyat şəbəkələri yaradılacaq. Bu, Ermənistanı Rusiya, İran və Türkiyə bazarları ilə, Azərbaycanı isə Naxçıvan eksklavı və Türkiyə ilə birləşdirəcək. Bu halda istər Bakı, istərsə də Yerevan üçün böyük iqtisadi imkanlar açılacaq. Qeyd edək ki, onların heç birinin dənizə çıxışı yoxdur. Münaqişənin başladığı 1990-cı illərdək Ermənistanın dəmir yolu ilə yük daşımalarının 85%-i Azərbaycan ərazisindən keçib.

Beşincisi, məlumdur ki, ABŞ bir zamanlar Küveytin bərpası üçün humanitar yardımlar göstərib. Vaşinqtonun bu təcrübədən istifadə etməsi yaxşı olardı. Konkret desək, Birləşmiş Ştatların şirkətləri müharibə zamanı dağılmış, işğaldan azad olunmuş ərazilərin bərpası işlərinə qatılarsa, çox yaxşı olar. Onlar təxminən 800 min azərbaycanlı məcburi köçkün və Qarabağ erməniləri üçün yollar, evlər, məktəblər, tibb müəssisələri tikə, kommunal xidmətlərlə bağlı problemlərin həllinə yardım göstərə bilər.

Yeri gəlmişkən, BMT-nin hesabatına əsasən, Azərbaycana vurulmuş zərər 53,5 milyard dollardır. Bu, Azərbaycan kimi kiçik ölkə üçün çox ciddi rəqəmdir.

Altıncısı, artıq ümumi regional problemlər ayrı-ayrılıqda, yaxud ikitərəfli əlaqələrlə həll oluna bilməz. Odur ki, bir tərəfdə ABŞ-ın, digər tərəfdə Azərbaycan, Gürcüstan və Ermənistanın iştirak edəcəyi birgə strateji dialoq platformasının yaradılması əslində, mütəmadi təhlükəsizlik məsələlərinin müzakirəsinə, iqtisadi inteqrasiyaya töhfə verəcək, Vaşinqtonun regionla bağlı yeni siyasətinə təkan olacaq. Bu platformada iştirak region ölkələri arasında koordinasiyanı yaxşılaşdıracaq, inamı artıracaq, Yerevanla Bakı arasında sülhü daha da gücləndirəcək.

Bir sözlə, regionda inteqrasiyanın əsas təşəbbüskarı olan Azərbaycanın rolunu nəzər alaraq söyləyə bilərik ki, Vaşinqton bölgədə ən böyük iqtisadiyyata malik olan, çoxşaxəli xarici siyasət yürüdən Bakı ilə münasibətləri strateji dialoq səviyyəsinə qaldırmalıdır. Yəni ABŞ-ın Azərbaycanla əlaqələri Gürcüstan və Ermənistanla münasibətləri ilə eyni səviyyədə olmalıdır. ABŞ Ermənistanla Azərbaycan arasında nəqliyyat əlaqələrinin bərpa olunduğu dövrdə "Azadlığa Dəstək" Aktına qəbul etdiyi 907-ci düzəlişi də ləğv etməlidir. Bu düzəliş kifayət qədər ədalətsiz olmaqla yanaşı, iki ölkə arasındakı münasibətlərə psixoloji əngəldir. Onun ləğvi ABŞ-Azərbaycan əlaqələrində yeni dövrün əsasını qoya, yeni regional münasibətlərdə uğur qazanılmasına töhfə verə bilər.

***Nurlan Mustafayev***
***(İngilis dilindən tərcümə - WorldMedia.Az)***
***Mənbə: The National Interest***
***Newtimes.az***

# Vergidən azadetmə çörəyin qiymətini qoruya biləcəkmi?

**Azərbaycanda buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı daha 3 il əlavə dəyər vergisindən azad olunma müddəti artırılır. Bununla bağlı Milli Məclisdə Vergi Məcəlləsinə dəyişiklik layihəsi artıq ikinci oxunuşda müzakirəyə çıxarılaraq qəbul edilib.**

Aydın məsələdir ki, burada məqsəd bu məhsulların bahalaşmasının qarşısını almaqdır. Ancaq bahalaşmanın qarşısını almaq üçün yalnız ƏDV-dən azad etmək kifayət edəcəkmi?

Xatırladaq ki, hələ 2015-ci ildə manatın məzənnəsinin dəyişməsi ilə əlaqədar əhalinin, xüsusilə aztəminatlı ailələrin sosial müdafiəsini gücləndirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı 15 yanvar 2016-cı il tarixindən etibarən əlavə dəyər vergisindən azad olunmuşdu. Bunun nəticəsində unun topdansatış qiyməti daşınma xərclərindən asılı olaraq 50 kiloqramlıq 1 kisə unun qiyməti 21 manat 50 qəpiklə 22 manat 50 qəpik arasında, pərakəndə satış qiyməti isə 23 manatla 24 manat arasında formalaşmışdı. Unun yeni qiymətinə uyğun olaraq, 500 qramlıq çörək 30 qəpiyə, 700 qramlıq çörək isə 40 qəpiyə satılması müəyyən olunmuşdu. Lakin bu qiymət həmin ilin avqust ayına qədər davam etdi və çörəyin qiyməti 10 qəpik artdı. Çörək istehsalçıları bildirirdilər ki, qiymət artımının səbəbləri unun, elektrik enerjisinin və suyun satış qiymətinin yüksəlməsidir. Reallıqda isə həmin ərəfədə elektrik enerjisinin pərakəndə satış qiymətində 1 qəpik və ya 16 faiz artım olsa da, qeyri-əhali qrupu suyun qiymətində dəyişiklik olmamışdı. Lakin həmin il elektrik enerjinin qiymətində yenidən 28,57 faiz artım olub.

Ötən müddətdə dünya bazarlarında qiymət artımı fonunda ölkəyə idxal olunan buğda da bahalaşma olub. Belə ki, əgər 2016-ci ildə ölkəyə idxal edilmiş buğdanın hər tonunun qiyməti 184,43 ABŞ dolları olmuşdusa 2020-ci ildə bu rəqəm 18 faiz artaraq 217,51 dollara çatıb.



Digər tərəfdən Azərbaycana ən çox buğda idxal olunan Rusiyanın 15 fevral - 30 iyun tarixlərində bu məhsula kvota tətbiqinin qiyməti artırıb. Həmçinin Rusiya hökuməti buğda ixracı üçün vergini martın 1-dən 2 dəfə artıraq hər tonuna görə 50 avroya qaldırmağa qərar verib.

Qeyd edək ki, 15 fevral-1 mart tarixləri arasında bu vergi hər tona görə 25 avro müəyyən edilib.

Eyni zamanda, ölkədə yerli istehsalın bu sahədə tələbin 60 faizini ödədiyi bildirilsə də, Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən buğda istehsalın əvvəlki illə müqayisədə 14 faiz azalıb. Bundan başqa, ötən il ölkəyə buğda idxalında 13,9 faiz azalma qeydə alınıb.

Bu arada çörək istehsalçıları 2016-ci ildən sonra qiymət artımına getməsələr də çəkidə azalma açıq-aydın ortadadır. Təkcə pərakəndə satışı 50 qəpiyə olan "zavod" çörəyi üzrə apardığımız monitorinqin nəticəsində məlum olur ki, əksər istehsalçıların bu məhsulunun çəkisi təxminən 600 qram olmaqla 2016-cı ildə müəyyən edilən çəkidən 14,3 faiz aşağıdır. Burada yalnız 2 istehsalçının ("Nömrə 1" və "Çörəkçi" çörək zavodları ) sözügedən məhsulunun çəkisi 700 qram ətrafında olub.

Belə görünür ki, buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı daha 3 il əlavə dəyər vergisindən azad olunması qiymət artımının qarşısını ala biləcək. Lakin idxal edilən buğdanın bahalaşmasının davam edəcəyi, həmçinin elektrik enerjisinin qiymətində dəyişiklik baş verəcəyi halda, bunun çörəyin qiymətində də özünü göstərəcəyi açılmazdır.

***Ceyhun Piriyev***


Azerbaijan To Build 'Smart Cities' In Liberated Regions

The restoration and development of the newly liberated territories is the top priority for the government of Azerbaijan. It implies wide participation of private and state-owned companies, as well as foreign investors in the process. Currently, Azerbaijan is developing a concept of restoration and reconstruction of its liberated territories, which includes attracting foreign investors to the development of these territories.

On January 19, the institute of the special representative in the liberated territories was set up. In an online meeting, President Ilham Aliyev named his first special representative for the newly

## Bəhreyn qəzetində Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında aparılacaq bərpa işlərindən bəhs edən məqalə dərc olunub

**Bəhreyn Krallığının "News of Bahrain" qəzetində Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayevin "Azərbaycan işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhərlər" inşa edəcək" sərlövhəli məqaləsi dərc edilib.**


The Daily tribune

Azerbaijan to build 'smart cities' in liberated regions

Azerbaijan has launched new infrastructure projects to reconstruct the territories liberated from Armenia's 30-year-old occupation and companies of friendly countries will be involved in the restoration work

Son charged with stabbing US Navy staffer mother in Bahrain

Myann leading

AZƏRTAC xəbər verir ki, işğaldan azad edilmiş ərazilərin bərpasının Azərbaycan hökuməti üçün prioritet məsələ olduğu diqqətə çatdırılan məqalədə bu prosesdə hökumət strukturları və özəl şirkətlərin, habelə xarici sərmayədarların iştirak edəcəyi qeyd olunub. Əlavə edilib ki, Azərbaycanda bununla bağlı əhatəli konsepsiya hazırlanıb.

Müəllif diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə xüsusi nümayəndələr idarəçilik sistemi tətbiq edib və Qarabağın incisi olan Şuşaya öz nümayəndəsini göndərib. Dövlətimizin başçısı həmin ərazilərdə ən yüksək standartlara uyğun "ağıllı şəhərlər" salınacağını, su ehtiyatlarından səmərəli istifadə, külək və günəş enerjisinin tətbiq olunacağını da bəyan edib.

Məqalədə vurğulanıb ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılacaq bərpa-quruculuq işlərində İtaliya, Avropanın digər ölkələri, ABŞ-ın şirkətləri də iştirak edəcək.

## Ravvin Zamir İsayev: Azərbaycan ordusunda döyüşən yəhudilər icmamızın və bütün ölkənin qürurudur

İşğaldan azad edilmiş torpaqları ziyarət edən ilk israilli



Ravvin Zamir İsayev, 2020 - ci ilin oktyabrında hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmiş torpaqları ziyarət edən ilk israilli olub. Bu yaxınlarda İsayev Azərbaycan və İran sərhəddində yerləşən Füzuli rayonunu və Zəngilan şəhərini ziyarət edib. Qapalı hərbi zona olan əraziləri ziyarət etmək üçün Azərbaycan ordusundan və ölkənin Prezident Administrasiyasından xüsusi icazə tələb olunur. İsayevin direktoru olduğu 46 saylı Bakı Yəhudi məktəbinin məzunları arasında ən azı 5 nəfər döyüşlərdə iştirak edib. "Şagirdlərimin azad olunması üçün mübarizə apardıqları əraziləri öz gözlərimlə görmək mənim üçün vacib idi " - deyə Zamir İsayev bildirib. "Azərbaycan ordusunda döyüşən yəhudilər icmamızın və bütün ölkənin qürurudur".

Marşrutun əsas nöqtəsi Zəngilan şəhəri idi. 29 oktyabr 1993-cü ildə Qarabağ müharibəsi zamanı Zəngilan rayonu erməni silahlı qüvvələri tərəfindən işğal edildi və elə həmin dövrdən etibarən de - fakto qondarma "Dağlıq - Qarabağ Respulikası"nın hakimiyyəti tərəfindən idarə olunub. Baxmayaraq ki, bu ərazilər tarixən heç vaxt qondarma " Dağlıq Qarabağ Respublikası"nın tabeliyində olmayıb. 1993-cü il BMT- nin Təhlükəsizlik Şurasının qərarına əsasən, Zəngilan rayonu beynəlxalq səviyyədə işğal edilmiş ərazi kimi tanınıb və Zəngilan Azərbaycanın işğal olunmuş ən son şəhəri olub. 2020-ci ilin oktyabrında Azərbaycan Silahlı Qüvvələri şəhərə və ətraf ərazilərə nəzarət yaratdı. 1993-cü ildə evlərini tərk etmək məcburiyyətində qalan 42700 keçmiş Zangilan sakini hazırda Azərbaycanın ərazisində yaşayır. Ravvin İsayevin sözlərinə görə, o, hələ 1993-cü ildə erməni qoşunlarının ərazini tərk edərkən məhv etdiklərinin həcminə heyrətlənmişdi. Azrbaycanın şəhər sakinləri rayonu tərk etdikdən və öldürüldükdən sonra orada yerləşən 18-ci əsrə aid məscid, xəstəxana və məktəblər daxil olmaqla şəhərin bütün binaları darmadağın edilmişdi. İsayev bildirib ki, "Mən təxminən 30 il xarabalıqda qalan, tərkedilmiş bir şəhər gördüm". Bir çox bina tamamilə dağıdılmışdı. Görünür Erməni hakimiyyəti burada məskunlaşmağı deyil, yalnız onu məhv etməyi planlaşdırıblar. Zəngilan kimi şəhərlər açıq şəkildə göstərir ki, ermənilər bu torpağa öz torpaqları kimi yanaşmayıblar ". Onun sözlərinə görə, indi azad edilmiş ərazilərin bərpası sürətlə davam edir, komunikasiya və əlaqələr yenidən canlanır. İsayev bildirib ki, görünən mənzərə Azərbaycanda 29 -cu il dönümü qeyd olunacaq 26 fevral Xocalı faciəsini xatırladır. 1992-ci il Qarabağ müharibəsi zamanı, fevralın 25 - dən 26 - a keçən gecə, erməni silahlı birləşmələri Xocalı şəhərində 613-dən çox dinc sakini qətlə yetirib. Azərbaycan mənbələrində bu hadisə Xocalı Soyqırımı kimi qeyd olunur.

## Anna Akopyan bu dəfə bahalı geyimi ilə "topa tutuldu"

**Ermənistanın baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan bu dəfə bahalı şərfi ilə gündəmə gəlib. "İki sahil" xəbər verir ki, iki gün öncə müharibədə ölmüş əsgər ailəsini ziyarət edən Akopyanın geyimi ermənilər tərəfindən tənqid olunub.**



"Anna Akopyan dünyaca məşhur fransız markası "Louis Vuitton"un bahalı şərfini taxaraq müharibədə öldürülmüş yoxsul erməni ailəsinə baş çəkdi. Deyilənə görə, bu adi görünən şərfin qiyməti 1000 dollara yaxındır.

Baş nazirin arvadı ölən hərbçinin ailəsini ziyarət etməzdən bir neçə gün əvvəl ad gününü qeyd etmək üçün gizli şəkildə ABŞ-a getmişdi. Bundan öncə yanvarın 14-də iki qızı ilə birgə Moskvaya gedərək orada bahalı restoranlarda və Böyük Teatrda əylənmişdi. Çox güman ki, Akopyanın boynundan asılan bahalı şərf xaricdən alınıb. Onun yas içində olan yoxsul hərbçi ailəsinin evində bahalı brend geyimi ilə poz verməsi yersiz görünür...", - deyə erməni KİV-ləri növbəti dəfə Akopyanı hədəfə alıblar.

# Vüqar Rəhimzadə: AXC-Müsavat cütlüyü hakimiyyətə gəlmək üçün torpaqlarımızı hərraca çıxarmışdı

**“Bu gün yaşlı və orta nəslin nümayəndələri bədnam AXC-Müsavat cütlüyü hakimiyyətinin ölkəni bərbad vəziyyətə saldığını yaxşı xatırlayırlar. Bu, orduda daha acınacaqlı hal almışdı. Ordunun maddi-texniki təminatı, hərbi arsenalı yox dərəcəsində idi. Silahlı Qüvvələrin döyüş ruhunu saxlamaq üçün arxa cəbhədə milli birlik də təmin edilməmişdi.**



Ön cəbhədə döyüşlərin getdiyi bir vaxtda arxa cəbhədə vəzifə davası aparılır, siyasi qruplaşmalar arasında açıq silahlı mübarizə gedirdi. Ordunun daxilindəki müxtəlif silahlı birləşmələr də ayrı-ayrı siyasi və maraq qruplarının tabeliyində idilər. Paytaxtda vəzifə davasına çıxan siyasi qruplar daha çox pay qoparmaq üçün həmin silahlı birləşmələri ön cəbhədən - döyüş bölgəsindən geri çəkərək Bakıya gətirir, onlardan siyasi mübarizədə, vəzifə bölgüsündə təzyiq aləti kimi istifadə edirdilər. Silahlı birləşlələr AXC-Müsavat mənfur cütlüyünün Bakıda vəzifə davasında iştirak etdiyi həmin dövrdə ön cəbhə müdafiəsiz qalmışdı. Məhz bu hərc-mərcliyin, özbaşınalığın, anarxiyanın nəticəsində erməni quldurları Azərbaycanın son dərəcə strateji əhəmiyyətli Şuşa və Laçın rayonlarını işğal etməyə nail oldular.

Heç də təsadüfi deyildir ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfərləri çərçivəsində Laçın rayonunun Güləbird kəndindəki çıxışında dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan bir daha diqqəti Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən Şuşa və Laçın rayonlarının hansı şəraitdə işğal altına düşməsinə yönəltdi. Laçının Azərbaycanın Şuşadan sonra işğala məruz qalmış ikinci rayonu olduğunu xatırladan möhtərəm Prezidentimiz bildirdi ki, bu rayonun işğal edilməsi faktiki olaraq Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdır. Laçının işğalını Azərbaycanın strateji nöqteyi-nəzərdən çox böyük məğlubiyyəti kimi dəyərləndirən Müzəffər Ali Baş Komandan xalqımızın bu faciənin baş verməsində milli satqınların xain əməllərini heç zaman unutmamalı olduğunu təkzibolunmaz tarixi faktlar və dəlillərlə diqqətə çatdırdı: “Laçın rayonunu satanlar, Şuşanı satanlar eyni adamlardır. Mən bunu demişəm. Bir daha demək istəyirəm ki, Azərbaycan xalqı bunu bilsin və heç vaxt unutmasın. AXC-Müsavat mənfur cütlüyü hakimiyyətə gəlmək üçün bu torpaqları düşmənə satıb”. Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında söyləyib.

Vüqar Rəhimzadə bildirib ki, cəbhədə döyüşlərin getdiyi vaxt İsgəndər Həmidovun, Rəhim Qazıyevin və digər başabəla “lider”lərin silahlı dəstələrinin Bakı küçələrində avtomatlarla gəzdiyini, insanlara divan tutduğunu, vəzifə bölgüsündə daha çox pay qoparmaq üçün paytaxtı hərbi poliqona çevirdiklərini heç cür, heç vaxt unutmaq olmaz: “Möhtərəm Prezidentimizin qeyd etdiyi kimi, Azərbaycan xalqı bu satqınları, bu xainləri, bu düşmənləri unutmamalıdır. Bu gün həmin satqınlardan, xainlərdən, biri - dil pəhləvanı olan qaragüruhçu Əli Kərimlinin bütün pafoslu çıxışları yalan və böhtan üzərində qurulur. Onun moizələrinə qulaq asan və 1992-1993-cü illərdən xəbərsiz olan insana elə gələ bilər ki, həmin dövr ölkəmizdə ən uğurlu və xoşbəxt illər olub. Guya ölkədə bütün sahələrdə inkişaf, güclü iqtisadiyyat, yüksək rifah və s. təmin olunubmuş. Belədə istər-istəməz sual olunur: Əgər belə idisə niyə AXC-Müsavat qaragüruhunun hakimiyyəti cəmi 1 il davam gətirə bildi? Niyə Qarabağ erməni quldurlarından təmizlənmədi, siyasi-iqtisadi islahatlar aparılmadı, ölkədə vətəndaş müharibəsi və separatizm meyilləri tüğyan etməyə başladı? Əslində isə bu gün həmin 1 il ərzində AXC-Müsavat xəyanətkar cütlüyünün ölkəni necə çıxılmaz vəziyyətə saldığı hər kəsə məlumdur. Heç kəsə sirr deyil ki, Sovet İttifaqının süqutundan əvvəl və sonrakı il yarım ərzində Azərbaycanda tüğyan edən hərc-mərclik ərazilərimizin bir hissəsini erməni işğalı ilə üz-üzə qoymuş, digər hissəsində isə bu işğal yerli məmur özbaşınalığı ilə əvəzlənmişdi ki, nəticədə xaos, anarxiya yaranmış, ölkə hərtərəfli böhrana sürüklənmişdi. Belə bir şəraitdə hakimiyyəti əldə saxlamaq, eyni zamanda, Azərbaycana rəhbərlik etmək uğrunda mübarizə aparan diletant siyasətçilər ölkəni düşmənə peşkəş etməyə hazır olmaqla kifayətlənmir, əllərində olan bütün imkanlardan, o cümlədən qanunsuz silahlı birləşmələrdən maksimum səviyyədə yararlanmaqla dövlət mülkiyyətini talayırdılar. Bu cür dağıdıcı siyasət bədnam AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə daha da dərinləşmiş, Azərbaycan iqtisadiyyatı defolt həddinə çatmışdı”.

Baş redaktor diqqətə çatdırıb ki, AXC-Müsavat mənfur cütlüyü hakimiyyətə gəlmək üçün Azərbaycan torpaqlarını hərraca çıxarmışdı: “Həmin dövrdə nə ordudan, nə də hərbi uğurlardan danışmaq mümkün deyildi. Ölkədə ordu əvəzinə çoxsaylı silahlı qruplaşmalar mövcud idi. Vəzifə davası aparan hər kəs bir batalyon saxlayırdı. Təbii ki, belə bir vəziyyətdə ön cəbhədə hər hansı uğur qazanmaqdan söhbət gedə bilməzdi. Həmin dövrdə orduda vahid komandanlığın olmamasından istifadə edən erməni hərbi birləşmələri və onların havadarları ərazilərimizi bir-birinin ardınca işğal edirdilər. Möhtərəm Prezidentimizin xatırlatdığı kimi, məhz ölkə daxilindəki xaosun, anarxiyanın, mənəmmənəmliyin məntiqi nəticəsi olaraq Dağlıq Qarabağ və Laçın rayonu ilə yanaşı, 1993-cü ilin aprelində Kəlbəcər kimi strateji əhəmiyyətli rayon da AXC-Müsavat hakimiyyətinin xəyanəti ucbatından düşmənə təslim edildi. Bütün bunlarla yanaşı, Dağlıq Qarabağ ətrafı digər rayonların da işğala məruz qalmasına geniş zəmin yarandı. Ön cəbhədə, orduda olan belə bir acınacaqlı şəraiti aradan qaldırmaq, ölkəni düşdüyü dramatik situasiyadan çıxarmaq əvəzinə paytaxtda hakimiyyətdaxili mübarizə gündən-günə qızışırdı. Bu mübarizədə ön cəbhədə dislokasiya olunmuş silahlı birləşmələrdən istifadə edilməsi isə işğalçı Ermənistan ordusunun əl-qolunu açırdı. Nəticədə xəyanətkar AXC-Müsavat hakimiyyətinin hərbi sahədəki üzdəniraq “nailiyyətləri” ona gətirib çıxardı ki, ermənilər ölkəmizin ümumilikdə 20 faiz ərazisini işğal etdilər”.

Vüqar Rəhimzadə əlavə edib ki, bir illik hakimiyyətləri dövründə dağıdıcı AXC-Müsavat cütlüyü yalnız dövlətə, xalqa xəyanəti, millətə zülm verməsi, insanları çörəklə imtahana çəkməsi, ölkəni vətəndaş müharibəsi həddinə çatdırması, separatizmi alovlandırması və s. ilə yadda qaldı: “Bütün bunlar bu gün dili boğaza qoymayan Əli Kərimli və onun kimi antimilli ünsürlər üçün daha bir tarixi xatırlamaq dərsi olmalıdır. Yaxın tariximizdə baş verən hadisələri xatırlayarkən isə hər birimiz bir daha əmin oluruq ki, bu gün haqdan, ədalətdən, demokratiyadan, insan hüquqlarından dəm vuran Əli Kərimli və onun ətrafındakılar vaxtilə milləti aclıqla imtahana çəkmiş Vətən xainləri, xalq düşmənləridir”.

## Qazi: Tabutu sındırıb dedim ki, hələ sağam...



44 günlük Vətən müharibəsində şəhid olan hərbçilərimizin böyük bir hissəsi minaya düşərək həlak olub, bir çoxu da ağır yaralar alıb. Balakən rayonunun Şambul kəndindən olan kəşfiyyatçı snayper Pərviz Urkayev də mina zərbəsi nəticəsində sol ayağını itirən qazilərimizdən biridir.

Pərviz Urkayev “İki sahil”ə müsahibəsində bildirdi ki, minaya düşdükdən sonra onu şəhid bilərək tabuta qoyub morqa göndəriblər: “Suqovuşanı azad etdikdən sonra Ağdərə istiqamətində getməyə başladıq, 30 nəfərlik heyət idik. Sıra ilə gedərkən “sürpriz” minaya düşdük, dörd mina eyni anda partladı. O zaman mən də özümdə olmamışam, hər şeyi yuxu kimi xatırlayıram. Bir onu bildim ki, məni şəhid bilib tabuta qoydular, üzərimi də bağladılar. Bir müddət keçəndən sonra özümdə güc tapıb tabutu sındırdım, bildirdim ki, mən hələ sağam. Amma çox pis idim yenidən özümdən getdim və məni yenidən tabuta qoydular. Daha heç nə xatırlamıram. Bir də xəstəxanada ayıldım. Özümə gələndə ayağımın topuqdan aşağı hissəsi yox idi, əvvəl elə bildim kəsiblər, sonra məlum oldu ki, minaya düşərkən ayağım elə yerindəcə qopub. Şəhid olmadığımı da morqda həkim meyitləri yoxlayan zaman bilib. Nəbzimin vurduğun bildikdə reanimasiyaya aparıblar. O, həkimə həyatımı borcluyam”.

## Ermənistanın Qarabağdakı pozuculuq fəaliyyəti davam edir!

### İlham Əliyev: “Biz xəbərdarlıq edirik, əgər belə təxribat xarakterli addımlar atılacaqsa, Ermənistan daha da peşman olacaq”



Ötən il noyabırn 10-da imzalanmış üçtərəfli bəyanatın müddəaları Ermənistan tərəfindən kobudcasına pozulmaqda davam edir. Həmin vaxtdan hazırkı dövrə qədər Ermənistan hökumətinin müxtəlif rəsmiləri “Qarabağın müharibədən sonrakı vəziyyəti və bərpası” adı altında dəfələrlə Azərbaycanın ərazisinə səfərlər edərək, özbaşına qərarlar verir, habelə separatçı və quldur rejimin təxribatçı rəhbərləri ilə görüşlər keçirirlər. Belə görüşlərdən biri də ötən gün - fevralın 14-də baş tutub. SİA sputnik armeniya-ya istinadən xəbər verir ki, sözügedən məlumatda “Ermənistan hakimiyyəti Dağlıq Qarabağın iqtisadiyyatının bərpası prosesindəki iştiraklarını fəallıqla davam etdirirlər” ifadəsi yer alıb.

Belə ki, interpol xətti ilə axtarışda olan və Azərbaycanın ərazisindəki quldur “dqr” rejiminə rəhbərliyini davam etdirən Araik Arutunyan bu dəfə Ermənistanın iqtisadiyyat naziri Vaan Kerobyanla görüşüb, hətta sözügedən görüş haqqında informasiyanı “Qarabağ prezidentinin mətbuat xidməti” yayıb.

**Sputnik Armeniya: “İqtisadiyyat naziri Kerobyan öz növbəsində bildirib ki, “stepanakerti” dəstəkləmə prosesi davam edəcək və “qarabağlı həmkarları” ilə növbəti addımların müzakirəsi aparılacaq”**

“Arutunyan erməni hökumətinin “dqr”in iqtisadiyyatı üçün müharibənin ziyanlarının aradan qaldırılması yönündəki işini qeyd edərək vurğulayıb ki, “ölkədə” iqtisadi fəallığın bərpası üçün birgə işin aparılması vacibdir”, deyə qondarma separatçı rejimin məlumatında bildirilir.

İqtisadiyyat naziri Kerobyan öz növbəsində bildirib ki, “stepanakerti” dəstəkləmə prosesi davam edəcək və “qarabağlı həmkarları” ilə növbəti addımların müzakirəsi aparılacaq. Görüşdə, həmçinin “Qarabağın iqtisadiyyat və kənd təsərrüfatı naziri” Aşot Baxşiyanın da iştirak etdiyi bildirilir.

**Azərbaycan Prezidenti: “Bu səfərlərə son qoyulmalıdır... Əgər buna oxşar addım təkrarlanarsa, bizim cavabımız çox sərt olacaq”**

Yeri gəlmişkən, onu da xatırlada bilərik ki, bu il yanvarın 6-da 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev qəti şəkildə vurğulamışdı ki, bu cür səfərlərə son qoyulmasa Azərbaycanın cavabı sərt olacaq. Belə ki, həmin ərəfələrdə Ermənistanın xarici işlər naziri Ara Ayvazyan Dağlıq Qarabağa səfər edərək, qondarma rejimin rəhbəri ilə görüş keçirib və “artsaxın” gələcəyi ilə bağlı bəyanatlar səsləndirmişdi.

Ölkə başçımız sözügedən qanunsuz səfərlər bağlı bəyan etmişdi. SİTAT: “İndi mənə məlumat verildi ki, Ermənistanın xarici işlər naziri Xankəndiyə gedib. Sənin orada nə işin var? Müharibə onların yadından çıxmasın. Unutmasınlar ki, dəmir yumruq yerindədir. Bu səfərlərə son qoyulmalıdır. Biz xəbərdarlıq edirik, əgər belə təxribat xarakterli addımlar atılacaqsa, Ermənistan daha da peşman olacaq. Ermənistanın xarici işlər naziri, sən kimsən ki, oraya gedirsən? Xəbərdarlıq edirik. Əgər buna oxşar addım təkrarlanarsa, bizim cavabımız çox sərt olacaq. Elə birinci dəfə biz Xarici İşlər Nazirliyi vasitəsilə onlara xəbərdarlıq etdik, ondan sonra xəbərdarlıq başqa cür veriləcək. Onların ayağı oradan kəsilməlidir. Otursun öz ölkəsində”.

**Qalır növbəti və daha sərt addımın atılmasına ki, artıq onun da reallaşdırılması an məsələsinə çevrilib**

Beləliklə, fakt budur ki, Ermənistan tərəfi birtərəfli olaraq üçtərəfli bəyanatda əldə olunmuş razılaşma müddəalarını pozmaqda davam edir, habelə ölkənin rəsmi dövlət məmurları hələ də Qarabağ ərzilərinə gedərək, özbaşına qərarlar verirlər. O cümlədən, zaman-zaman erməni lobbisinə bağlı təşkilat və media qurumlarının da Xankəndiyə səfərləri baş verir ki, artıq bu kimi məsələlər bilavasitə Azərbaycanın haqlı iad və hiddətinə səbəb olur və bəyanatda imzası olan Rusiyanın vasitəçilik missiyasını sual altında qoyur. Hər halda, səbr kasasının yenidən dola biləcəyini və nəticəsinin Ermənistan üçün ağır olacağını ehtimal etmək mümkündür. Qalır növbəti və daha sərt addımın atılmasına ki, artıq onun da reallaşdırılması an məsələsinə çevrilib.

**Rövşən RƏSULOV**

# “871 vətəndaşımız hələ də erməni əsirliyində qalmaqdadır”

## *Müsahibimiz millət vəkili Azər Badamovdur*

***- Azər müəllim, ermənilərin ötən əsrin 90-cı illərində qətlə yetirdikləri və ya girov götürdükləri azərbaycanlıların ölkəmizə təhvil verilməsi tələb olunur. Ermənistan bu tələbi nə dərəcədə yerinə yetirəcək?***



- Ötən əsrin 90-cı illərin əvvəllərində başlanmış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi xalqımız üçün böyük faciələr yaratmışdır. Münaqişə nəticəsində torpaqlarımızın 20%-i işğal olundu, 1 milyona qədər soydaşımız öz doğma yurdlarından qaçqın-köçkün, 4 mindən çox azərbaycanlı itkin düşmüşdür. İtkin düşənlərin arasında 67 uşaq, 265 qadın, 326 qoca olmuşdur. Üstündən uzun müddət keçməsinə baxmayaraq 871 vətəndaşımız hələ də erməni əsirliyində qalmaqdadır. 27 sentyabr 2020-ci ildə başlanmış Vətən müharibəsində müzəffər ordumuz torpaqlarımızda erməni işğalına son qoydurmuş, amma 90-cı illərin əvvəllərində bu günə qədər erməni əsirliyində qalmış 871 vətəndaşımızın taleyi hələ də qeyri-müəyyən olaraq qalmaqdadır. Vətən müharibəsində əldə etdiyimiz tarixi qələbəmiz ermənilərə bizə qarşı törətdikləri vəhşiliklərə və cinayətlərə cavab verdirməsi üçün imkan yaratmışdır. Ermənilər o vaxt əsir götürmüş azərbaycanlılarla vəhşicəsinə rəftar etmiş, özləri üçün qul kimi istifadə etmişdir. Bu gün də həmin azərbaycanlıların harada saxlandıqlarını, onlardan nə qədəri sağ qaldığını və sağlamlıq durumları barəsində məlumatımız yoxdur. Həmin insanların adları və statistikası ölkəmizin müvafiq strukturlarında qeydiyyatdadır və araşdırmalar aparılır. Bütün bu faktlar erməni cinayətlərinə hüquqi qiymətin verilməsi üçün beynəlxalq məhkəmə instansiyalarına müraciət etməyimiz üçün əsas yaradır. Biz, Ermənistanı beynəlxalq məhkəmələrin gücü ilə 90-cı illərin əvvəllərindəki əsir və girovlarına dair hesabat verilməsinə və sağ qalanların ölkəmizə təhvil verilməsinə məcbur etməliyik.

***- Ermənistan 90-cı illərin əvvəllərində itkin düşən azərbaycanlılar haqqında məlumat verilməsi qarşılığında nə isə istəyə bilərmi?***

- Bu gün Azərbaycan qalib tərəfdir və bu illər ərzində pozulmuş bütün hüquqlarını Ermənistandan tələb etmək hüququna sahibdir. Düşünmürəm ki, Ermənistan verəcəyi bu məlumatların qarşılığında Azərbaycandan nə isə istəsin. Çünki, nə lazım idisə 44 günlük müharibədə vermişik və 10 noyabrda imzalanan üçtərəfli bəyannamədə bütün sualların cavabları əks olunmuşdur. Əldə etdiyimiz tarixi qələbə Azərbaycan-Ermənistan münasibətlərində yeni reallıq yaradıb. İndi ermənilər azərbaycanlılardan heç nə tələb edə bilməz. Nə tələb edilirsə, bunu biz edirik və ədalət tam bərpa olunana qədər də tələb edəcəyik.

***- Azərbaycan hakimiyyətinin 90-cı illərin əvvəllərindəki, vətəndaşlarının taleyi ilə bağlı israrlı tələbi öz vətəndaşlarına göstərdiyi xüsusi diqqətin və onların həyatı üçün narahatçılığının əsas nümunəsi sayıla bilər?***

- Azərbaycan, 90-cı illərin əvvəllərində itkin və əsir düşmüş vətəndaşların taleyi ilə həmişə narahat olmuşdur. Bu məsələ ilə ayrıca məşğul olmaq üçün Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası yaradılmışdır. Komissiya bu illər ərzində itkin düşmüş hər bir vətəndaşımız haqqında aşdırmalar aparmış, BQXK komitəsi qarşısında, qarşı tərəfə mütəmadi müraciətlər etmişdir. 1480 nəfəri əsirlikdən və girovluqdan azad etmişdir. Bu gün əsirlikdə və girovluqda qalan vətəndaşlarımızın taleyinin araşdırılması və bir nəticəyə nail olunması üçün işlər davam etdirilir. Dövlətimiz üçün hər bir vətəndaşımızın taleyi maraqlıdır, çox dəyərlidir. O cümlədən, 90-cı illərin əvvəllərində əsir və girov düşmüş vətəndaşlarımızın taleyi dövlətimizi hər zaman narahat etmiş və bu gün də axtarışların davam etdirilməsi bu narahatçılığın real ifadəsi olduğunu hesab edirəm.

***Gülyana***

# Manukyan-Koçaryan savaşı: iqtidar uğrunda amansız qarşıdurma başlayır

“Vətənin xilası hərəkatı”nın lideri müxaifətin digər cinahı ilə razı deyil: “Bizim siyasi gündəmimiz başqa cürdür”



ANALİTİK

***“Erməni milli fondu”nun açılışında çıxış edən müxalifətin “Vətənin xilası hərəkatı”nın lideri Vazgen Manukyanın “bizim fikrimiz başqa cürdür” ifadəsindən ilk olaraq belə nəticə çıxarmaq olar ki, artıq anti-Paşinyan koalisiyasında da parçalanma meyilləri artmağa başlayıb. Daha dəqiq desək, Ermənistanın sabiq prezidenti Robert Koçaryanın siyasətə geri dönməsi və növbədənkənar seçkilər keçirilərsə həmin seçkilərdə iştirak edəcəyi ilə bağlı verdiyi bəyanatı erməni müxalifət arenasında birmənalı qarşılanmayıb. Məhz Vazgen Manukyanın bu sözügedən əsnadakı fikirləri maraqdoğurucudur.***

### Vazgen Manukyan sınma nöqtəsini əldə edə bilmir və xalqı günahlandırır

SİA xəbər verir ki, bununla bağlı yazan erməni nəşri “Hraparak”ın qeyd etdiyinə görə, “Vətənin xilası hərəkatı”nın lideri daha əvvəl bildirmişdi ki, fevralın 20-ə təyin edilmiş mitinq sınma nöqtəsi olacaq və Paşinyanın devrilməsi prosesinə start veriləcək. Belə ki, Manukyan bundan əvvəlki etiraz mitinqlərinin də həlledici məqam olduğunu bildirmişdi. Ancaq müxalifət ciddi uğur qazana bilməməklə yanaşı, yetərli tərəfdarlarını da küçələrə çıxarmağa nail olmamışdı. Bu baxımdan, Manukyana sözügedən növbəti mitinqin hansı uğura gətirib-çıxaracağı ilə bağlı sual verilərkən o qeyd edib ki, heç bir fəaliyyət ilk başdan sınma nöqtəsinə gətirib-çıxarmır, lakin bu, ardıcıllıqla həyata keçirilərsə, onda həmin nəticəni əldə etmək mümkündür. Müxalifət lideri xalqdan yetərincə dəstək ala bilmədiklərinə eyham vuraraq, dolayı yolla ictimaiyyəti qınaq hədəfinə çevirib və bildirib ki, uğur qazanmaq üçün xalq bu fəaliyyətdə iştirak etməli və haradansa bir qəhrəmanın peyda olaraq xalqı xilas edəcəyinə ümid bəsləməməlidir.

### Robert Koçaryan Nikol Paşinyanın idarəçiliyi altında seçkilərin keçirilməsini istəməsə də, seçkilərə qatılacağını bəyan edib - Vazgen Manukyan isə Paşinyansız seçki arzulayır

Ancaq Vazgen Manukyanın çıxışı zamanı müxalifətin bütövlükdə bir arada olmamasını sübut edən daha bir nüans diqqətdən yayınmayıb. Belə ki, Robert Koçaryanın seçkilərdə iştirak edəcəyi və qalib gələcəyi iddiasına cavab olarq Manukyan bildirib. SİTAT: “O (Robert Koçaryan-R.R.) deyib ki, Nikol Paşinyanın idarəçiliyi altında növbədənkənar seçkilərin keçirilməsinə qarşıdır. Lakin seçkilər keçirilərsə, o, iştirak edəcək. Bizim siyasi gündəmimiz isə başqa cürdür: onları (Paşinyanı və komandasını-R.R.) kənara atmaq, sonra seçkiləri keçirmək”.

Beləliklə, ortada fikir ayrılıqları var və göründüyü kimi, Koçaryan hətta Paşinyanın idarəçiliyi altında seçkilərə qatılmağa hazır olduğunu bəyan edib, Manukyan isə birmənalı olaraq buna qarşıdır. Əgər seçkilər keçirilərsə, demək, müxalifətin bir qismi, yəni Koçaryan və “Vətənin xilası hərəkatı”na daxil olmayan digər müxalifət təmsilçiləri orada iştirak edəcəklər. Bu isə seçicilərin bir hissəsinin ümumüxalifət hərəkatından qopardılması anlamını daşıyır. Əslində isə, ortadakı məqsəd yalnız Nikolun devrilməsində, hakimiyyətdən kənarlaşdırılmasında, Ermənistanın düşdüyü vəziyyətdən xilasında deyil, məqsəd hakimiyyəti ələ almaq və erməni xalqının qanını sormağa davam etməkdən ibarətdir ki, artıq bu reallığın cücərtiləri özünü göstərməyə başladıb.

***Rövşən RƏSULOV***

## Sinoptiklərdən ciddi xəbərdarlıq: Hava şəraiti kəskin dəyişəcək!

Sinoptiklər hava şəraitinin kəskin dəyişəcəyi ilə əlaqədar xəbərdarlıq ediblər. Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, fevralın 17-də Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı gözlənilir. Fevralın 17-də axşam və fevralın 18-də yağışın fasilələrlə sulu qara, qara keçəcəyi ehtimal olunur. Şimal-qərb küləyi əsəcək, sürəti saniyədə 15-20, arabir 23-25 metr olacaq, fevralın 17-də axşam, fevralın 18-i gecə və səhər yarımadanın bəzi yerlərində bəzən 28-30 metr/saniyəyədək güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 5-10° enəcək, fevralın 17-də axşam və fevralın 18-də 0°-yə yaxın olacaq.

Fevralın 17-si Azərbaycanın şimal və qərb rayonlarından başlayaraq fevralın 19-u səhərədək ölkə ərazisində hava şəraitinin dəyişəcəyi, arabir yağıntılı olacağı, qar yağacağı, əsasən dağlıq və dağətəyi rayonlarda intensiv, güclü olacağı proqnozlaşdırılır. Qərb küləyi əsəcək, sürəti arabir 15-20 metr/saniyə olacaq, ayrı-ayrı yerlərdə bəzən 27-32 metr/saniyəyədək güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 5-10° enəcək. Dağlıq və dağətəyi rayonlarda yolların buz bağlayacağı, fevralın 17-də çovğun olacağı bildirilir.

# Koronavirus mutasiyaları peyvəndin effektivliyini azalda bilər?

ARAŞDIRMA

**ABŞ-da aparılan araşdırma mutasiyaya uğramış koronavirusun peyvəndlərin effektivliyini azalda biləcəyini göstərib. Peyvəndlərin Covid-19-dan hələ də qoruduğunu vurğulayan mütəxəssislər, ilkin tapıntılarla əlaqədar narahatlıqlarını bölüşüblər. Nyu Yorkdakı Rockefeller Universitetinin rəhbərliyi ilə Dr. Mişel Nussenzvei tərəfindən aparılan araşdırmada İngiltərə, Cənubi Afrika və Braziliyada koronavirusa yoluxanlar test edilib.**

Alınan nəticələrlə əlaqədar olaraq Nussenzvei, “Antikor reaksiyası virusu bloklamaqda o qədər yaxşı deyil” deyə bildirib. SİA-nın araşdırmasına görə, Rockefeller tədqiqatçıları Moderna və ya Pfizer peyvəndi olan 20 nəfərdən qan nümunələri götürməklə laboratoriyada müxtəlif virus mutasiyalarına qarşı antikorlarını sınayıblar. 16 peyvəndlənmiş şəxsin testlərində antikorların virusu bloklamaq qabiliyyətində böyük bir fərq göstərə bilmədiyi qeyd edilib.

Əvvəlki araşdırmalar, bu iki vaksinin Covid-19 virusunun qarşısını almaq üçün təxminən 95 faiz təsirli olduğunu ortaya qoyub. Virusun son mutasiya olmuş versiyalarının daha asan yayıldığını bildirən elm adamları bunun daha



çox ölümə və xəstəxanalarda müalicəyə səbəb olacağını söyləyiblər.

“Nəticələr narahatlıq doğurur”

Pensilvania Universitetinin immunoloqu E.Con Verry Rockefeller alimlərinin bu araşdırmada “dünyanın ən yaxşıları arasında olduğunu” və nəticələrinin narahatlıq doğurduğunu bildirib. “Biz insanların mövcud peyvəndin artıq köhnəldiyini düşünməsini istəmirik. Bu, qətiliklə doğru deyil. Hələ də toxunulmazlıq var, yaxşı bir qorunma səviyyəsi var, amma mutasiyalar əslində immun sistemimizin virusu tanımasını azaldır” deyə bildirib. Vaksinlənmənin sürətlə həyata keçirilməli olduğunu söyləyən Vanderbilt Universitetində peyvənd mütəxəssisi Dr. Baddi Kreç “Vaksinlə virus arasında bir silahlanma yarışımız var. Dünyada peyvəndi nə qədər yavaş yayırıqsa, bu virusdan xilas olmaq üçün daha çox fürsət veririk və mutasiyalar inkişaf edir”- vurğulayıb. Apardığı tədqiqatlarla Moderna və Pfizer vaksinlərinin hazırlanmasına kömək edən Pensilvaniya Universitetindən alim Dru Veisman antikor tapıntılarının narahat verici olduğunu deyib.

# Baş Prokurorluq: Qeyri-qanuni çağırışlar edən Niyaməddin həbs edildi

**Ölkəmizin milli təhlükəsizliyinə, habelə respublikamızın konstitusiya quruluşunun zorla dəyişdirilməsi və ərazi bütövlüyünün parçalanmasına yönəlməklə antiazərbaycan qüvvələrə və onların maraqlarına xidmət edənlərin xaos, anarxiya və təxribat cəhdlərinin qarşısının alınması istiqamətində hüquq-mühafizə orqanları tərəfindən əlaqəli şəkildə kompleks istintaq-əməliyyat tədbirləri həyata keçirilməkdədir. Baş Prokurorluqdan SİA-ya bildirilib ki, həyata keçirilən tədbirlərin davamı kimi, Niyaməddin Əhmədovun qanunsuz əməllərinə dair daxil olmuş məlumatlar əsasında Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmışdır.**




İstintaqla törətmiş olduğu cinayətə görə məsuliyyətdən boyun qaçırmaq məqsədilə Niyaməddin Əhmədovun 22.05.2017-ci il tarixdə Azərbaycan Respublikasını tərk edib Almaniya Federativ Respublikasında istintaqdan gizlənən tanışı Qabil Məmmədovla birlikdə "YouTube" videopaylaşma sistemində qeyri-məhdud sayda şəxslər dairəsinə yönəlməklə ölkəmizdə konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn, habelə eyni məqsədlə hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlar törədilməsi ilə bağlı açıq çağırışlar etmələrinə əsaslı şübhələr müəyyən edilmişdir.

İstintaqla, həmçinin, Niyaməddin Əhmədovun qeyd olunan materialları internet resursları vasitəsilə təkrarən yayılması üçün mobil tətbiq vasitəsilə qabaqcadan əlbir olduğu şəxslərlə törədiləcək cinayətlərin detalları ilə bağlı razılığa gəlmələrinə, ümumi cinayətkar niyyətə və sövdələşməyə uyğun olaraq Almaniya Federativ Respublikasında toplanmış xeyli miqdarda pulu açıq çağırışlar edəcək və materialları yayacaq şəxslərə tamamilə paylamaqla terrorçuluğu maliyyələşdirməsinə, lakin hüquq-mühafizə orqanları tərəfindən ifşa olunduğundan cinayətkar əməlini başa çatdıra bilməməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Bundan başqa, istintaqla Niyaməddin Əhmədovun ölkə ərazisində öz şəxsi maraqları naminə icra etmək istədikləri hərəkətləri gizli olaraq qeydə almaq məqsədilə digərləri ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında birləşib cinayət əlaqəsinə girərək qanunla mülki dövriyyədə olmasına yol verilməyən xüsusi ləvazimat olan eynək üzərinə uyğunlaşdırılaraq komfulyaj olunmuş gizli vizual müşahidə vasitəsini qanunsuz olaraq əldə edib özündə saxlamasına şübhələr üçün əsaslar müəyyən edilmişdir.?

Niyaməddin Əhmədova Cinayət Məcəlləsinin 214-1 (terrorçuluğu maliyyələşdirmə), 28,281.2 (dövlət əleyhinə yönələn açıq çağırışlara etməyə hazırlıq) və 233-1.2.1-ci (qanunla mülki dövriyyədə olmasına yol verilməyən əşyaları qanunsuz olaraq hazırlama, əldə etmə, saxlama, daşıma, gəzdirmə, başqasına vermə və ya satma) maddələri ilə ittiham elan olunmaqla, barəsində həbs qətimkan tədbiri seçilmişdir. Cinayət işi üzrə istintaq yekunlaşdırılaraq baxılması üçün aidiyyatı üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir.

# YAP Samux rayon təşkilatında videokonfrans keçirilib




16 Fevral 2021-ci il tarixdə Yeni Azərbaycan Partiyası Samux rayon təşkilatında Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2021-ci ilin "Nizami Gəncəvi İli" elan olunması və dahi Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 880 illik yubileyi ilə əlaqədar videokonfrans keçirildi. Tədbiri giriş sözü ilə açan YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov, bu cür tədbirlərin əhəmiyyətindən bəhs edərək vurğuladı ki, Prezident İlham Əliyevin 2021-ci ili "Nizami Gəncəvi ili" elan etməsi ölkəmizdə klassik ədəbi irsimizə, milli ədəbiyyatımızın və mədəniyyətimizin görkəmli simalarının tanıdılmasına müstəqil Azərbaycan dövlətinin göstərdiyi xüsusi diqqətin və böyük qayğının əməli ifadəsidir. Bu, həm də Prezident İlham Əliyevin Azərbaycan tarixinə, mədəniyyətinə və ədəbiyyatına, adlı-sanlı ədəbitarixi şəxsiyyətlərimizə yenidən qayıdış istiqamətində apardığı ardıcıl siyasətin növbəti təzahürüdür.

Sonra tədbir iştirakçılarından Lək kənd tam orta məktəbin müəllimi Vəfa Qarayeva çıxış edərək qeyd etdt ki, Azərbayanda və dünyada kifayət qədər tanınmış və böyük şöhrət qazanmış Nizami Gəncəvinin zəngin bədii irsini azərbaycançılıq və müstəqil dövlətçilik işığında yenidən tədqiq və təbliğ etməklə bu görkəmli sənətkarı daha dərindən kəşf etməyə və bütün parlaqlığı ilə yenidən tanıtmağa ehtiyac var. Qeyd edilən sərəncam da bu nəcib və önəmli vəzifənin gerçəkləşdirilməsini hədəfə alıb.

Daha sonra Samux şəhər 2 saylı uşaq bağçasının direktoru Aytən Məmmədova çıxış edərək bildirdi ki, 2019-cu ilin "Nəsimi ili" elan olunması bu görkəmli şair və mütəfəkkirin Azərbaycan və dünyaya yenidən tanıdılması sahəsində mühüm addımların atılmasına şərait yaratdı. Möhtərəm Prezidentimizin "Nizami ili" haqqındakı mühüm tarixi önəmi olan sərəncamı Nizami Gəncəvinin də həyatı və yaradıcılığını bütün istiqamətlər üzrə yeni təfəkkür əsasında tədqiq və təhlil etməyə geniş meydan açır, yüksək imkan yaradır.

Tədbirdə Samux şəhər 3 saylı tam orta məktəbin müəllimi Gülarə Cabbarova və Alıuşağı kənd tam orta məktəbinin müəllimi Gəncalə Zeynalova da çıxış edərək vurğuladılar ki, Nizami elə bir xəzinədir ki, hər zaman araşdırılmalı və bu işlər aktiv şəkildə davam etdirilməlidir. Prezident İlham Əliyevin 2021-ci ilin "Nizami ili" elan olunması haqqında sərəncamı Nizami Gəncəvi kimi dünya miqyaslı qüdrətli sənətkara yenidən dönüş üçün Azərbaycan ziyalılarını səfərbər olmağa çağırır. Biz ziyalı, elmli, istedadlı şəxsiyyətlərimizlə daim fəxr edərək onların dünyaya tanıdılmasında da əhəmiyyətli rol oynamalıyıq.

***Nəzakət***

## Azərbaycanın ən yaşlı sakininin 108 yaşı var

Azərbaycanın yaş verifikasiyası (yaşın dəqiqləşdirilməsi) aparılmış uzunömürlüləri arasında ölkəmizin ən yaşlı sakini yenə də Lənkəran rayonu Sütəmurdov kəndinin 1918-ci il təvəllüdlü sakini Mirzadə Cabbarova olub. Bunu Azərbaycan Milli Elmlər Akademiyası Fiziologiya İnstitutunun direktoru, biologiya üzrə elmlər doktoru Ulduz Həşimova deyib. Onun sözlərinə görə, yaş verifikasiyası aparılmış uzunömürlülər arasında ən yaşlı sakin olan 108 yaşlı Vəsmə Məmmədova 2018-ci ildə dünyasını dəyişdikdən sonra M.Cabbarova Azərbaycanın ən yaşlı sakini olub. U.Həşimova bunu da əlavə edib ki, onların yaş verifikasiyası (yaşın dəqiqləşdirilməsi) məqsədilə apardıqları tədqiqat bütün ölkəni əhatə etməyib. Bu tədqiqat ölkənin əsasən, cənub bölgəsini əhatə edir.

# Koronavirusun tamamilə aradan qaldırılması vaksinasiyanı zəruri edib

**Koronavirus (COVID-19) epidemiyası bu gün dünyada geniş yayılıb və virusun aradan qaldırılması istiqamətində geniş səpgili tədbirlər həyata keçirilir. Yoluxma hallarının aşkarlanması, xəstəliyin yayılmasının qarşısının alınması və insanların həyatının xilas edilməsi və s. məqsədilə təcili işlər görülməkdədir. Hər zaman olduğu kimi bu gün də dövlətimizin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində Azərbaycan bütün dünyanı bürümüş karonavirusdan ən az əziyyət çəkən, bəşəriyyətin bəlasına çevrilmiş pandemiyaya qarşı ən səmərəli mübarizə aparan ölkələrar asında ön sıralardadır. Avropanın ən qabaqcıl ölkələrini belə virusla mübarizədə arxada qoyur və Azərbaycan modeli hər zaman olduğu kimi çətin bir zamanda da öyrənilir.**

Dünyanın ən güclü ölkələri belə karonavirus pandemiyasının qarşısında çarəsiz qaldığı halda, dövlət başçısının tapşırığı və sərəncamları ilə təxirəsalınmaz tədbir həyata keçirildi və bu davamlıdır. Bildiyimiz kimi, Ümumdünya Səhiyyə Təşkilatı "COVID-19"-la bağlı milli və beynəlxalq səviyyədə göstərdiyi ciddi səylərə görə, Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirib.

Vətəndaşların layiqli həyat şəraitinin və təhlükəsizliyinin təmin edilməsi, hazırkı qlobal problemin təsirindən müdafiəsi Azərbaycan dövləti üçün ən vacib və prioritet məsələdir. Bildiyimiz kimi, bu gün karonavirusa yoluxmuş bütün pasiyentlər Azərbaycanın ən yaxşı xəstəxanalarında dövlətin hesabına müalicə olunub və bu davam etməkdədir.

### ŞƏKƏRLİ DİABET, XRONİKİ ÜRƏK-DAMAR, TƏNƏFFUS SİSTEMİ XƏSTƏLİKLƏRİ OLANLAR İLK VAKSİNASİYA OLUNANLAR SIRASINDA YER ALMALIDIR

Artıq bir ildir ki, bu qorxulu kabusla birlikdə yaşayırıq və qeyd etdiyimiz kimi, müəyyən tədbirlər həyata keçirilməsinə baxmayaraq, sözügedən infeksiyaya qarşı mübarizənin qarşısını almaq üçün ən yaxşı yol vaksinasiyadır. Yanvarın 18-dən bu proses ölkəmizdə tibb işçilərinin vaksinasiyası ilə başlanılıb. İndiyədək tibb işçilərinin 70 faizinə peyvənd vurulub. Fevralın 8-dən etibarənisə yaşı 65-də yuxarı olan vətəndaşların vaksinasiyasınabaşlanılıb.



Bu gün etiraf edək ki, peyvənd edilməkdən qorxanlar da istisna deyil, amma peyvəndin üstünlüklərini dərk edən hər bir kəs yaşlı ailə üzvlərinin, eləcə də özlərini peyvənd olunması üçün lazımı yerlərə müraciət edirlər. Hes şübhəsiz ki, mövcud vəziyyəti nəzərə alaraq, şəkərli diabet, xroniki ürək-damar, tənəffüs sistemi xəstəlikləri olanlar ilk vaksinasiya olunan sırasında yer almalıdırlar. Bu ağırlaşma, ölümcül xəstəliklərdən qorunmaq üçün ən əhəmiyyətli bir addımdır ki, hər kəs bunu dərk etməlidir. Mütəxəssisdlərin fikrincə vaksinasiyanın qoruyuculuğu 60-90 faiz arasında dəyişir. Vaksinasiyadan sonra orqanizmdə yaranan anticisimlərin miqdarı fərdi xarakter daşıyır və yaranan müdafiə sisteminin nə qədər hansı müddət davam edəcəyi və nə dərəcədə qoruyacağı barədə araşdırma yoxdur. Əgər əhalinin 70-80 faizinə həmin peyvəndlər vurulsa, infeksiyanın yoluxma zəncirini qırmaq mümkün olacaq.

### COVID-19-UN DÜNYADA YAYILMASININ QARŞINI ALMAQ ÜÇÜN EFFEKTİV VƏ TƏHLÜKƏSİZ VAKSİNLƏR TƏTBİQ OLUNUR

İndi ölkəmizdə tətbiq edilən Çinin "Sinovac" şirkətinin istehsal etdiyi "CoronoVAC" peyvəndi orqanizmə qarşılaşa biləcəyimiz virusun modeli inyeksiya edilir. Həmin modeli immun sistemi tanıdığına və ona qarşı müdafiə silahı olduğuna görə, orqanizm virusla qarşılaşan zaman ona hazır olur. Azərbaycan bildiyimiz kimi, artıq Çin istehsalı olan 4 milyon doz vaksin sifariş edib və bu da təmin edilib. Bu vaksinasiya işində dövlətin öz vətəndaşına olan münasibətinin daha bir təzahürüdür.

Nüfuzlu tibbi jurnal olan "The Lancet" Çinin "Sinovac" şirkətinin istehsal etdiyi "CoronoVAC" vaksinindən, onun uğurlu sınaqlarının müsbət nəticələrindən yazır. Məqalədə qeyd olunur ki, gənclərlə müqayisədə 60 yaşlı və ondan yuxarı insanlar, xüsusilə də kəskin xroniki xəstəliklərdən əziyyət çəkən şəxslər COVID-19 xəstəliyini daha ağır keçirirlər və yaş artdıqca ölüm riski də artır. Bu səbəbdən COVID-19-un dünyada yayılmasının qarşını almaq üçün effektiv və təhlükəsiz vaksinlərin tətbiqi zəruridir.

"CoronoVac" vaksininin COVID-19 əleyhinə inaktivasiya edilmiş peyvənd olduğu bildirilən məqalədə deyilir ki, COVID-19-a yoluxma riski yüksək olan 60 yaş və daha yuxarı şəxslərin bu vaksinə daha çox ehtiyacı var. Bu vaksin qeyd edilən yaş qruplarında olan şəxslərin təhlükəsizliyinin, dözümlülüyünün və immunogenliyinin artırılması üçün istifadə edilir. Məqalədə bildirilir ki, adıçəkilən vaksin yaşlı şəxslərin dözümlülüyünə müsbət təsir edir və heç bir təhlükəsi yoxdur.

Qeyd etdiyimiz kimi, Çinin "Sinovac" şirkətinin istehsal etdiyi "CoronoVAC" vaksini mərhələli şəkildə ölkəyə gətirilir və vaksinlərin ilkin mərhələdə 60 yaşdan yuxarı insanlara, tibb işçiləri, polis əməkdaşları və digər risk qruplarından olan şəxslərə vurulmasına başlanılıb. Əlbəttə ki, pandemiyanın tamamilə aradan qaldırılması üçün kütləvi immunitetin formalaşması lazımdır və qaçılmazdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Tahir Rzayev: "Prezidentimiz bütün çətinlikləri aradan qaldırmağa qadirdir"

**"Torpaqlarımızın işğaldan azad olunması, həmin ərazilərdə kənd təsərrüfatının inkişafına geniş imkanlar açır. Bu torpaqlarda pambıqçılığın, üzümçülüyün, tütünçülüyün, baramaçılığın, heyvandarlığın inkişafı üçün potensial çox böyükdür.**



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Füzuli, Zəngilan və Cəbrayıl rayonlarında olarkən bu ərazilərdə aqrar sektorun inkişaf perespektivlərindən ətraflı bəhs edərkən bu məsələlərə bir daha aydınlıq gətirib və göstərib ki, 6 - 7 rayonun kənd təsərrüfat sahəsi daha sürətlə inkişaf edəcək, məhsuldarlıq artacaq, fermerlər, kəndçilər daha çox maliyyə vəsaiti qazanacaqlar. Evləri də, təbiəti də bərpa edəcəyik. Eyni zamanda göstəriş vermişdim ki, vaxt itirmədən payızlıq əkin də aparılsın. Sözsüz ki, ölkə rəhbərinin tapşırıqlarına əməl edilib və 7 min hektarda əkin işləri aparılıb. Ancaq bu işin başlanığıcıdır. Bu ilki mövsümdə 20 - 25 min hektarda əkin aparılması, bu günə kimi suvarılmayan 100 min hektar torpaq sahəsinə su verilməsi nəzərdə tutulur. Aqrar sahənin inkişafı üçün əsaslı layihələr hazırlanıb ki, bu da işlərin sürətlə həyata keçirilməsinə hesablanıb". Bunu SİA-ya açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib.

Deputatın sözlərinə görə, Prezidentimizin, birinci xanım Mehriban Əliyevanın, Leyla xanımın işğaldan azad olunmuş ərazilərə səfərləri, burada Horadiz - Zəngilan - Ağbənd dəmir yolunun təməlinin qoyulması, Laçın rayonunda Güləbird su elektrik stansiyasının açılışının edilməsi, Zəngilan rayonunda "ağıllı kənd" layihəsinə start verilməsi, yaşıllıqların salınması, ağac əkilməsi, əkin sahələri ilə tanışlıq və sair tədbirlər göstərir ki, ölkə Başçısının rəhbərliyi ilə erməni təcavüzkarları tərəfindən məhv edilmiş şəhər və kəndlərimiz, qırılmış meşələrimiz, viran qoyulmuş tarixi - mədəni, dini abidələrimiz, yararsız hala salınmış torpaqlarımız tez bir zamanda bərpa olunacaq: "İnsanlar öz ata - baba yurdlarına qayıdacaq, əkin - biçin, quruculuq işləri uğurla davam etdiriləcəkdir".

T.Rzayev vurğulayıb ki, Azərbaycan Prezidenti Qarabağın cənnətə çevriləcəyi mesajını dönə - dönə verməklə, heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz ifadəsini işlətməklə dünyaya, haqq səsimizi uzun illər eşitməyənlərə, erməni faşistlərinə dəstək olanlara, bir çox liberal beynəlxalq təşkilatlara bildirmək istəyir ki, Azərbaycan xalqı qüdrətlidir, ordumuz güclüdür, gələcəyimiz işıqlı və xoşbəxtdir: "Xalqımız Prezidentimizi dəstəkləyir, onunla bir mövqedədir və sözsüz ki, müharibədə olduğu kimi bərpa işində də öz sözlərini deyəcək, qətiyyət göstərəcəklər".

***Aysel Məmmədova***



# YAP Ağsu rayon təşkilatı hesabat yığıncağı keçirib

Yeni Azərbaycan Partiyası Ağsu rayon təşkilatının 2020-ci ildəki fəaliyyətinin yekunlarına həsr olunmuş videokonfrans formatında hesabat yığıncağı keçirilib. Hesabat yığıncağında YAP Ağsu rayon təşkilatının sədr müavini, Ağsu rayon İcra Hakimiyyəti başçısının 1-ci müavini Füzuli Kərimli, Yeni Azərbaycan Partiyası İcra Katibliyinin Təşkilatlarla iş şöbəsinin baş məsləhətçisi Emil Abasov, YAP Ağsu rayon təşkilatının Şura üzvləri, ilk partiya təşkilat sədrləri iştirak ediblər. İlk öncə Yeni Azərbaycan Partiyasının qurucusu, Ümummilli Lider Heydər Əliyevin ruhunu bir dəqiqəlik sükutla yad ediblər. Həmçinin hesabat dövründə respublikada, rayonumuzda vəfat etmiş partiya üzvlərinin, o cümlədən torpaqlarımızın azad olunması uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi yad olunub.

Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Ağsu rayon təşkilatının sədri Əli Hüseynov geniş hesabat məruzəsi ilə çıxış edərək, rayon təşkilatının 2020-ci il ərzində Yeni Azərbaycan Partiyasının Proqram və Nizamnaməsi əsasında fəaliyyət göstərərək işini rayon təşkilatının iş planına, YAP Mərkəzi Aparatının təlimat və göstərişlərinə uyğun qurduğunu bildirib və keçirilməsi nəzərdə tutulan tədbirlər barədə danışıb.

Bundan başqa, 27 sentyabr 2020-ci il tarixində başlanmış 44 günlük Vətən müharibəsi dövründə Yeni Azərbaycan Partiyası İcra Katibliyinin təlimat və tapşırıqlarına əsasən, rayonun şəhid ailələrinə, qazilərinə, eləcə də ordumuza, həmçinin Vətən Müharibəsində iştirak üçün səfərbərliklə orduya çağırılmış hərbçi ailələrinə yardımlar çatdırıldığını bildirib.

Əli Hüseynov onu da qeyd edib ki, ərazilərdə gənclərlə və qadınlarla aparılan iş Yeni Azərbaycan Partiyası Ağsu rayon təşkilatı Aparatının, Gənclər Birliyi və Qadınlar Şurasının daim diqqət mərkəzində saxlanılıb.

Daha sonra müzakirələr aparılıb. Çıxışlarda YAP Ağsu rayon təşkilatının Qadınlar Şurasının sədr müavini Sevil Mirzəliyeva, Gənclər Birliyinin sədri Elnur Fərzəlizadə, Ağsu şəhər 4 saylı tam orta məktəbin direktoru Günay İnayətova, Təhsil işçiləri ilk partiya təşkilatının sədri Tahir Xasi görülən işlərdən danışıblar, təşkilatın üzvlərinin rayondakı ictimai-siyasi proseslərdə öz fəallıqları ilə fərqləndiklərini qeyd ediblər və 2020-ci ildə rayon təşkilatının fəaliyyətinin qənaətbəxş qəbul edilməsini məqsədəuyğun hesab ediblər.

YAP İcra Katibliyinin məsul əməkdaşı Emil Abasov çıxış edərək bildirib ki, Ağsu rayon təşkilatı 2020-ci ildə geniş tədbirlər keçirib. Milli Məclisə keçirilən seçkilər zamanı, pandemiya dövründə, Vətən müharibəsi vaxtı rayon təşkilatının həyata keçirdiyi tədbirlər təqdirəlayiqdir. E.Abasov qeyd edib ki, rayon təşkilatı 2021-ci ildə öz fəaliyyətini daha da aktivləşdirməli, partiyamızın Sədri, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən tədbirlərin rayon sakinləri arasında geniş təbliğ olunmasını təmin etməli, sosial şəbəkələrdə fəallığı daha da gücləndirməlidir.

Yığıncaqda YAP Ağsu rayon təşkilatının 2020-ci ildəki fəaliyyəti qənaətbəxş hesab olunub, 2021-ci il üçün Fəaliyyət Planı qəbul edilib.

***RƏFİQƏ HÜSEYNOVA***

# Məşhur Məmmədov: "Prezidentin hər səfəri işğaldan azad olunan torpaqlara həyatı qaytarır"



**"Hərbi əməliyyatların bitməsindən sonra Prezident İlham Əliyevin mütəmadi olaraq işğaldan azad edilmiş rayonlara səfər etməsi dövlət başçısının bu məsələlərə nə dərəcədə həssas yanaşdığının sübutudur". Bu fikirləri "SƏS" qəzetinə açıqlamasında Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili Məşhur Məmmədov deyib.**

M.Məmmədov Azərbaycan dövlət başçısının işğaldan azad olunmuş rayonlara səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm də mənəvi cəhətdən mühüm əhəmiyyət kəsb etdiyini deyib: "Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfər etməklə bu ərazilərin Azərbaycana aid olduğuna, xalqımızın bu torpaqlara artıq əbədi döndüklərinə dair növbəti dəfə bütün dünyaya açıq şəkildə mesaj ünvanlamış oldular. Görülən işlərin, həyata keçirilən layihələrin siyasi və iqtisadi əhəmiyyəti öz yerində, ancaq Ermənistanda revanşist qüvvələrin bəyanatları, çağırışları da Azərbaycan Prezidentinin diqqətindən kənarda qala bilməz. Dövlət başçısı Ermənistanda məğlubiyyətlə barışmaq istəməyən, qisasçılığa, müharibəyə, revanşa səsləyən qüvvələrə növbəti dəfə xəbərdarlıq edərək, onları xam xəyallar qurmaqdan çəkinməyə çağırıb. Dövlət başçısı bir daha öz sərt mesajını verərək deyib ki, onlar anlamalıdırlar ki, biz hər şeyə diqqət yetiririk, hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın. Revanşist qüvvələrə torpaqların azad edilməsi zamanı ordumuzun apardığı döyüşləri, Ermənistan ordusunun darmadağın edildiyini, Azərbaycanın prinsipial mövqeyinin qələbə çaldığını xatırladıb, bu ölkənin iqtidarlı-müxalifətli bütün qruplarına keçmişdən dərs çıxarmağı məsləhət görüb".

M.Məmmədov vurğulayıb ki, hazırda Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərdə intensiv şəkildə bərpa-quruculuq işləri həyata keçirməkdədir. Bu işlər çərçivəsində inşasına başlanılan mühüm strateji obyektlərin, müəssisələrin təməlinin Prezident İlham Əliyev tərəfindən şəxsən qoyulması görülən işlərin xüsusi diqqət mərkəzində saxlanıldığından xəbər verir: "Bu gün mən azad edilmiş torpaqlara yenidən gəlmişəm. Bu gün bu torpaqlarda bir neçə tədbir keçirilir. Bu tədbirlərin məqsədi azad olunmuş torpaqları tezliklə bərpa etməkdir ki, insanlar buraya qayıtsınlar və bu torpaqlara həyat gəlsin".

Bərpa işləri arasında elektrik enerjisinin xüsusi yer tutduğunu deyən M.Məmmədov vurğulayıb ki, Prezident İlham Əliyev səfər zamanı da sözügedən məsələyə xüsusi diqqət yetirildiyini deyərək bildirmişdir ki, ilk növbədə Şuşa şəhərini elektrik enerjisi ilə təchiz etmək üçün əməli addımlar atılır və birinci mərhələ başa çatıb və Şuşanı dayanıqlı elektrik enerjisi ilə təmin etmək üçün "Azərenerji" Səhmdar Cəmiyyəti də yüksəkgərginlikli xətlər çəkir və şəhərdə elektrik yarımstansiyası inşa edir. Dövlət başçımız Güləbird kəndində Su Elektrik Stansiyasının açılışı zamanı bildirib ki, işğaldan azad edilmiş rayonlarda "yaşıl enerji" zonasının yaradılması məqsədilə ilkin olaraq pilot layihələr qismində bəzi yerlərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının da tətbiqi baş tutacaq: "İşğaldan azad edilmiş bütün şəhər və rayonların baş planlarının hazırlanması ilə bağlı Prezidentin tapşırığının icrası hazırda yüksək surətlə davam etməkdədir. Eyni zamanda, işğaldan azad edilmiş rayonlarda "yaşıl enerji" zonasının yaradılması məqsədilə ilkin olaraq pilot layihələr qismində bəzi yerlərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının da tətbiqi baş tutacaq. Ağıllı kənd layihəsi ilkin olaraq Zəngilan rayonunun Üçüncü Ağalı kəndində icra olunacaq".

Səfər zamanı Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən tarixi əhəmiyyətli Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun təməl daşı qoyulması da xüsusi əhəmiyyətli məsələ olduğunu deyən Məşhur Məmmədov səfər zamanı Prezident İlham Əliyev bu dəmir yolunun çox böyük strateji əhəmiyyətiinin olduğunu da vurğulayaraq bildirib ki, Horadiz-Ağbənd dəmir yolunun istifadəsi Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında dəmir yolunu bir-birinə bağlanacaq: "Bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Digər tərəfdən, bu dəmir yolu Naxçıvana gedəcək. Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa var. Artıq bu işlərə start verildi".

M.Məmmədov dövlət başçımızın dediyi kimi, Horadiz-Ağbənd dəmir yolunun istifadəsi Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında dəmir yolunu bir-birinə bağlanacaq. Bu tarixi əhəmiyyətli kommunikasiya xəttinin açılışı bir zamanlar ermənilərin havadarlarının və işğalçıların xalqımıza qarşı məkrli planlarını məhv etmiş olacaq. Bir sözlə, dövlət başçımızın dediyi kimi: "Bu bayrağın altında Azərbaycan xalqına doğma Laçın diyarından müraciət edirəm. Bizim Qələbəmiz tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən deməşəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Millət vəkili bildirib ki, Azərbaycan rəhbərinin siyasi iradəsi, verdiyi vədlərlə əməllərinin vəhdəti onu deməyə əsas verir ki, çox keçməyəcək işğaldan azad edilmiş torpaqlara həyat qayıdacaq, bu ərazilər yenidən çiçəklənəcək, bura təkcə ölkənin deyil, regionun ən inkişaf etmiş məskənlərindən birinə çevriləcək.

***RƏFİQƏ HÜSEYNOVA***

# Əli Kərimli Sevinc Osmanqızını ölümlə təhdid etdi?

## Sevinc Osmanqızı: "Siz onda məni fiziki yox edəcəksiniz ki..."

**AXCP-"Milli Şura"nın sosial media resurslarından biri kimi tanınan "Osmanqızı TV" və Sevinc Osmanqızı ilə Əli Kərimli arasında ciddi qarşıdurmalar yaşanmağa başlayıb. SİA xəbər verir ki, qarşıdurmaya səbəb Sevinc Osmanqızının düşərgədə kimin həqiqi müxalifət olub-olmaması ilə bağlı yaranmış savaşa qarşı ittiham irəli sürməsi, belə iddiaların düşərgəyə yalnız xələl gətirdiyini deməsi, eləcə də AXCP sədrinin simpatiya bəsləmədiyi müxalifyönlü insanları canlı efirə qoşması məsələsidir.**

### AXCP sədri "Osmanqızı TV"ni əlindən çıxardı

Məhz düşərgənin "Milli Şura", ya da AXCP üzvü olmayan cinahlarında fəaliyyət göstərən müxalifət təmsilçilərinin də efirə qoşulmalarını həzm edə bilməyən cəbhəçilərin "lideri" Sevinc Osmanqızını sosial şəbəkələrdə təhqir hədəfinə çevirib. Bu fakt isə belə qənaətə gəlməyə zəmin yaradır ki, hazırkı vaxta qədər ən çox Qənimət Zahidin və Sevinc Osmanqızının canlı yayımlarına qoşularaq özünü zorla gündəmdə saxlamağa cəhd edən Əli Kərimli artıq onlardan birini - "Osmanqızı TV"ni əlindən çıxarıb.



### Əli Kərimlidən Sevinc Osmanqızına "Səni çökdürəcəyik" təhdidi

Bu arada, Əli Kərimlinin və ətrafının xəstə təfəkkürə məruz qaldığını iddia edən Sevinc Osmanqızı həm də dolayısı ilə etiraf edib ki, hazırkı zamana qədər göstərdiyi xidmətinə görə, yəni cəbhəçiləri Əli Kərimlinin personasında dəstəklədiyinə görə peşmandır. Bundan sonra isə o, dərhal canlı efirdə ayrıca verilişə çıxıb. Belə ki, "Səni çökdürəcəyik! Mənə hücumlar və mənim cavabım" adlı verilişlə efirə çıxaraq bəyan edib ki, bu gün resursları olmayan qüvvə - yəni AXCP və "Milli Şura" cütlüyü ona "səni çökdürəcəyəm" deyir.

Osmanqızı Əli Kərimlinin əlində olarsa, hətta onu həyatına qəsd edə biləcəyini də istisna etməyib. "Axı sabah siz hakimiyyətdə olanda sizin resurslarınız olacaq, onda siz mənə nə edəcəksiniz?! Siz onda məni fiziki yox edəcəksiniz ki...", deyə "Osmanqızı TV"nin rəhbəri bildirib.

### "Yaxşı ki, bütün bunları gördüm"

Və bu da azmış kimi, onun haqqında cəbhəçi trolların şikayət etdiklərini də deyən Osmanqızı bunun belə davam edə bilməyəcəyini qeyd edib: "İndi məni üzv olduğum şəbəkədə patronlarıma şikayət edirlər. Yaxşı ki, bütün bunları gördüm. Görünür, kiminsə quyruğu qapı arasında qalmalıdır ki, sən onları sınayasan. Deyirlər ki, sənin kanalına gəlməyəcəyik".

Beləliklə, Sevinc Osmanqızı ziyanın yarısından geri dönməyin də xeyir olduğu qənaətinə gəlib və gec də olsa anlayıb ki, bu vaxta qədər nə qədər xili, xəyanətkar və satqınçılıq girdabında fəaliyyət göstərib. Yeri gəlmişkən, onu da xatırlatmaq yerinə düşərdi ki, belə bir hal Əli Kərimliyə qarşı birinci dəfədir ki, baş vermir və bu günə qədər yüzlərlə onu dəstəkləyən insanlar sonradan ondan imtina ediblər. Sevinc Osmanqızı da məhz həmin adamların sırasına daxil olan növbətisidir.

*Rövşən RƏSULOV*

# Nairadan "əsassız" ittihamlar

**"Bu gün baş naziri Nikol Paşinyan məqsədyönlü şəkildə ölkəni vətəndaş müharibəsinə aparır". SİA ermənilərin NEWS.am saytına istinadən xəbər verir ki, "Çiçəklənən Ermənistan" partiyasından olan deputat Naira Zohrabyan bu fikri səsləndirib.**



Xatırladaq ki, bir müddət bundan əvvəl ikinci ən böyük erməni şəhəri olan Gümrüdə Paşinyan tərəfdarları mitinq keçiriblər. Deyilənə görə, təqribən min nəfərə qədər erməninin qatıldığı mitinqdə Nikol tərəfdarları baş nazirə dəstək olaraq "alovlu" çıxış ediblər. Deyilənə görə, çıxış edənlərdən bəzisi hətta son müharibədə qalib gəldiklərini də bildirib. Yeri gəlmişkən bir xatırlamanı yadınıza salım. Xatırlayırsınızsa, Pasinyan hakimiyyətə gəldiyi ərəfədə ruslara xoş görünmək üçün arada onların da ünvanına, ötəri də olsa, xoş sözlər səsləndirirdi. Təbii ki, həmin ərəfədə, onun rusların ünvanına səsləndirdiyi "xoş sözlər"in nəyə hesablandığı hamıya məlum idi.

Biz Rusiyanın düşməni deyilik... Rusların 102-ci hərbi bazasının məhz bu şəhərdə - Gümridə yerləşdiyini nəzərə alacağımız təqdirdə deməli, Paşinyanın əvvəldən elə də sadəlövh olmaması qənaətinə gəlməliyik. Həmin ərəfədə Paşinyanın rus hərbi bazası yaxınlığında səsləndirdiyi bu çağırışların ruslar tərəfindən də eşidildiyini istisna etmirdi. Deməli, söyləməyə əsas var: Paşinyan Qərbi "sevdiyi" kimi, Rusiyanı da "sevir"miş. İndi, belə görünür ki, o hətta Rusiyanı Qərbdən də çox sevirmiş.

Belə olan halda, Naira Zohrabyanın Gümridəki son mitinqi tənqid etməsi, həmin mitinqinə toplaşanların əksəriyyətinin Paşinyanın əsabələri olduğu barədə səsləndirdiyi fikirlər məncə, yersizdir. Belə görünür ki, ermənilərin müəyyən qismi Nikolu sevməkdə hələ də davam edirlər. (Paşinyanın Rusiyanı sevdiyi kimi...)

Amma, neynəyəsən ki, qələm düşmən əlindədir... Döşəyirlər, yazıq Paşinyanın qabırğasına. Sizi bilmirəm, amma mənim keçmişi elə də ideal bir qadın olmayan Nairaya bir sualım var: Naira can, mənə maraqlıdır, sən elə düşünürsən ki, hakimiyyətdə Nikol Paşinyan yox, lap elə sənin 2014-cü ilə qədər şad-xürrəm yaşadığın həyat yoldaşın Samvel Mkrtçyan olsaydı Ermənistanı gözəl günlərə çıxaracaqdı?

Nikol Paşinyanı müharibədə ağır məğlubiyyətə uğrayan ölkənin baş naziri olaraq qalmaqda ittiham edirsən? Amma unutmaq istədiyin bir şeyi yadına salım: Ermənistanın qurubu hələ Levon Ter-Petrosyan prezident olarkən, sənin, bəli, məhz elə sənin kimilərə "qonşularımıza etdiklərimizin bumeranq olub özümüzə qayıdacağını" dediyi sözləri xatırlatmaq istəyirəm.

Təbii ki, bəlkə də unutmamısan. Bu gün ölkə iqtisadiyyatının defolt vəziyyətə çatmaq ərəfsində olduğunu Nikolun adına yazmaq nə dərəcədə düzgündür? Axı, siz ermənilər həmişə ələbaxan xalq olmusunuz. Yadınıza onu da salım ki, vaxtilə 15 Sovet Respublikaları arasında iqtisadi göstəricilərə görə Ermənistan 14-cü yerdən yuxarı qalxmayıb. İndi sənə sual edirəm: bu, bəbəxt Nikol, xaricdən fiziki şəxslər tərəfindən Ermənistana göndərilən ianələri hansı əsasla ölkə iqtisadiyyatının inkişafına yönəldə bilərdi.

Naira can, xatırlayırsan, Paşinyan hakimiyyətə gəldiyi ilk günlərdə Moskvadan erməni iqtisadçı Abel Aqanbekyanı "erməni iqtisadiyyatını qaldırmağa" yardım etmək üçün çağırmışdı. Amma, Ermənistanın olmayan perspektivləri barədə məlumatlı olan Abel elə qaçdı ki, hələ də o gedəndi.

...Erməni qadına Nikolu müdafiə etməkdən uzaq olduğumu bildirərək, xatırlatmaq istəyirəm ki, bu gün Ermənistanda yaşanan naqisliklərdə başqa ermənilər kimi, məhz onun da deputat kimi böyük xidməti olub.

*Ağasəf Babayev*

## Radikal müxalifət düşərgəsində yeni savaş başladı!



Radikal müxalifət daxilində soyuq savaş yenidən qızışıb. Bu dəfə düşərgənin Əli Kərimli cinahının ən böyük informasiya dəstəkçisi Sevinc Osmanqızı hədəfə alınıb. Bu günə qədər bir-birinə "can" deyən Osmanqızı və Əli Kərimlinin tərəf müqabillərinin arası ciddi şəkildə pozulub. Məsələ, bir-birini təhdid etmək səviyyəsindədir.

Belə ki, Amerika Birləşmiş Ştatlarında məskunlaşan jurnalist Sevinc Osmanqızı şəxsi "YouTube" kanalında "Səni çökdürəcəyik! - Mənə hücumlar və mənim cavabım" adı ilə efirə çıxaraq qeyd edib ki, "Səni çökdürəcəyik" şəklində hücumlar bir neçə gün əvvəl Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəlioğlu və Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyevi verilişinə dəvət etdikdən sonra başlayıb. O bildirib ki, təhdidlər "bu kanala necə gəlmişdikcə, elə də gedəcəyik", "səni çökdürəcəyik" kimi sözlərlə edilir.

Düzdür, Osmanqızı onu təhdid edənlərin konkret kim olduğunu demir, deməkdən çəkinir. Amma sosial şəbəkələrdə gedən müzakirələr, müxalifət düşərgəsindəki mövcud durum və xüsusən də Osmanqızının özünün işlətdiyi ifadələr onu da, Əli Kərimli tərəfdarlarını da ələ verir. "Mən sizə daha çox xeyir vermişəm", "Öz ayağınıza güllə atmayın", "Budurmu sizi qonaq etməkdən sonra mənə qoyduğunuz hörmət?", "Kanala bir daha çıxmamaq qərarı verirsizsə, bu, sizin qərarınızdır" - deyə, Osmanqızı vurğulayır.

Səbəb isə ortadadır - Əli Kərimli və tərəfdarları Mirmahmud Mirəlioğlunu, eləcə də Əli Əliyevi özlərindən saymırlar. Və Osmanqızının bu şəxsləri efirə çıxarmasını həzm və qəbul edə bilmirlər.

Buradan belə nəticəyə gəlmək olar ki, radikal müxalifətin Əli Kərimli cinahının eqosu, şəxsi maraqlarını hər şeydən üstün tutma istəyi öz "dostlarını" belə təhdid etmək iqtidarındadır...

## Nəvədən nənəyə "sürpriz"

Moskvada 11 yaşlı qız nənəsinə hücum edərək ona üç bıçaq zərbəsi vurub. SİA bildirir ki, bu barədə Rusiyanın federal telekanalı xəbər yayıb. Kanalın verdiyi xəbərə görə, hadisə fevralın 13-də baş verib. Nənəsinin otağına girən 11 yaşlı nəvə ona "sürpriz" hazırladığını bildirərək, ondan gözlərini yummasını istəyib.




Təqaüdçü nənə gözlərini yumandan sonra nəvə arxasında gizlətdiyi bıçağı çıxararaq nənənin çiyin və baş hissəsinə xəsarətlər yetirib. Telekanal bildirir ki, hazırda hadisənin təfərrüatları yoxlanılır.

Yeri gəlmişkən bildirək ki, bir müddət bundan əvvəl Rusiyanın Kuzbas vilayətində də nənənin ölümü ilə nəticələnən hadisə baş vermişdi. Belə ki, 38 yaşlı nəvə mübahisə zamanı 87 yaşlı nənəsini balta ilə vurub öldürmüşdü. Maraqlıdır ki, sonradan 38 yaşlı qadın -nəvə günahkar olduğunu səmimiyyətlə etiraf edib.

*Ağasəf Babayev*

## Gəncədə bir ailənin 4 üzvü dəm qazından zəhərlənib



Gəncədə zəhərlənmə faktı qeydə alınıb. SİA-nın bölgə müxbirinin məlumatlına görə hadisə şəhərin Üzeyir Hacıbəyov küçəsində baş verib.

1976-cı il təvəllüdlü Paşayev Nəzər Aydın oğlu,1980-ci il təvəllüdlü Mirişova Vüsalə İsmayl qızı ,2014-öcü il təvəlüdlü Paşayev Xəzər Nəzər oğlu və 2001-ci il təvəllüdlü Paşayev Vüsal Nəzər oğlu yaşadığlara evdə dəm qazından zəhərləniblər. Onlar dərhal xəstəxanaya yerləşdiriliblər. Xəstələrə lazımi tibbi yardım göstərilib. Hal-hazırda, vəziyyətlərinin normal olduğu bildirilir.

# İlk "qadın ...lar"

## və ya bəşər tarixindən bəzi qadın ilkləri

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*

**Gender bərabərsizliyinin və ya bərabərliyinin ən çox müzakirə olunduğu bir dövrdə yaşayırıq. Hər gün bu mövzuda yeni nəsə eşidirik. Hər gün alimlərlə din xadimlərinin arasındakı mübahisələrə şahid oluruq. Hər gün qadınlarla kişilərin müxtəlif aspektlərdən qarşılaşdırılmasını görürük. Əbədi olaraq bir-birinə yoldaş olan bu iki varlıq həm də əbədi rəqibdir. Amma həm elmi, həm dini yönümdən qadın və kişi anlayışı bir insan, şəxsiyyət olaraq bütövdür və bu bütövü təşkil edən hər iki fərd önəmlidir. O zaman niyə bəzi cəmiyyətlərdə qadın hər zaman kişidən bir addım geridə görülür?**

Zərif (bir az kobud deyildikdə zəif) və güclü (hegemon) cins. Bu ifadəni ilk dəfə kim işlədib, bilinmir, amma qadınla kişini bir-birindən ayırmaq üçün ən çox istifadə edilən ifadədir. "Zərif" sözünün yerində çox zaman "zəif" sözünü də görürük. Tarix bizə göstərir ki, tarixin bütün dövrlərində qadın özünü və bacarığını göstərib. Bu matriarxal dediyimiz zamanda da belə olub, patriarxal dövrdə də belədir.

Tarix və təcrübə göstərir ki, qadın zərifdir, amma zəif deyil. Qadın da kişilərin bacardığını bacarır, asan və ya çətin iş olmasına baxmayaraq. Mövcud olan bütün peşələrdə də qadın əməyi var- analıqdan döyüşçülüyə, evdarlıqdan kosmonavtikayadək. Hər şeyin bir ilki vardır, zaman olub ki, qadınlar bu "ilk"i bacarıblar. Bu dəfə qadın "ilk"lərdən yazmaq qərarına gəldik. Beləliklə, tarix boyu dünyada mövcud olmuş peşələrdəki "ilk" qadınlar...

İlk qadın Kosmonavt - Onun milliyəti rus olub. Vaxt var idi ki, bütün dünya o qəhrəmandan danışırdı. Valentina Tereşkova adını ilk qadın kosmonavt kimi tarixə yazdı. 1963-cü ildə, 19 iyun tarixində Sovet İttifaqının "Vostok VI" kosmik gəmisi ilə 71 saat ərzində planetimizin ətrafında 48 dəfə dövr etdi. Bununla da bəşər tarixində qadının ən məsuliyyətli, ən çətin və ən cəsarətli işi bacarması faktı həkk olundu.

İlk qadın baş nazir - Bu Şirimavo Bandaranaykedir. O 1960-cı ildə öz hökumətini qurdu, Şri-Lanka hökumətinin ilk baş naziri oldu. Ondan sonra qadın baş nazirlərin sıralanması isə bu cürdür: Hindistanda 1966-cı ildə İndira Qandi, İsraildə 1969-cu ildə Elizabet Domiteyn, İngiltərədə 1979-cu ildə Marqaret Techer, Pakistanda 1988-ci ildə və 1993-cü ildə Bənazir Bhutto öz ölkələrinin baş naziri seçildilər.

İlk qadın Səfir - Aleksandra Qollandas adlı rusdur. Aristokrat bir ailənin övladı olan bu xanım 1915-ci ildə öz ailəsi və aid olduğu təbəqə ilə olan bağlarını qopardı və bolşeviklərə qoşuldu. 1922-ci ilin payızında Sovet İttifaqının Norveçdəki səfiri təyin edildi. O tarixdə SSRİ hələ Norveç tərəfindən rəsmən tanınmamışdı, ona görə ilk xanım səfir Norveçin SSRİ-ni rəsmi olaraq tanınmasından, yəni 1924-cü ilin 15 fevralından sonra vəzifəsinin icrasına başladı.

İlk Qadın Memar - Peşəsini tam və əsaslı olaraq yerinə yetirən ilk qadın memar Ethel Meri Çarlz olduqca bacarıqlı bir qadın olub. Həm öz dövründə, həm də ondan sonra "qadın kişi işini bacarmaz" deyənlərə ən yaxşı sübut olaraq bu xanım göstərilir. Böyük layihələrə imza atan Meri 1898-ci ildə imtahandan uğurla keçərək "İngiltərənin Memarlar Otağı"na üzv oldu.




Misirin ilk qadın hökmdarı- Kleopatra. Misirin son hökmdarı, dövrünün ən güclü 2 şəxsi Sezar və Mark Antoni ilə birlikdə öz ölkəsinin bütövlüyünü təmin edən, gözəlliyi bu gün belə dillərdən düşməyən qadın.

İlk müsəlman qadın hökmdar- Raziyyə sultan. Dehli sultanı (1211-1236) Şəmsəddin Eltutmuş xanın qızı. Çox maraqlıdır ki, Eltutmuş xanın oğulları var idi. Lakin o, qızını oğullarından üstün tutdu. Raziyyə sultan imanlı və güclü bir dövlət başçısı idi. Qadın paltarını kişi libasına dəyişərək və yay-oxla silahlanaraq o, çox zaman xalq arasına çıxardı. O, həm də şeirlər yazırdı və onları çoxu günümüzədək gəlib çatıb.

İlk qadın Vəkil - "Qadın müdafiə olunandır, qadın zəifdir və qadın qayğıya ehtiyac duyandır"- Arabella bu sözlərdən bezdiyini deyirdi. O müdafiə olunan yox, müdafiə edən olmaq istəyirdi. Sadə Amerika vətəndaşı Arabella Mansfayld arzularını və istəklərini reallaşdırdı. Bir vəkilin bürosunda şagirdlik etdi, təhsilini tamamladı. Arabella 1869-cu ilin iyun ayında ilk məhkəməsinə çıxdı və məhkəməni qazandı.

İlk qadın həkim - Elizabet Blakvell əslən İngiltərədəndir, daha sonra ABŞ-a köçür. Həkim olmağa uşaqlıq zamanı qərar verir. Səbəbi isə uşaqlıq dostunu xərçəngdən itirməsi olur. Dostu ölmədən öncə Elizabetə "qadın bir həkim olsaydı dərdimi daha rahat deyə bilərdim" demişdi və bu sözlər onun qulağında ömürlük qalmışdı. O Filadelfiya və Nyu-Yorkdakı tibb məktəblərinə müraciət etdi, amma onlar qız tələbə istəmədilər. Elizabet yenilmədi, var gücü ilə mübarizə etdi və sonunda məktəbə qəbul olundu. Məzun olduqdan sonra məhz qadın olduğuna görə heç bir xəstəxanada işə götürmədilər. O da məcbur olub öz tibb mərkəzini açdı. İlk xəstələri də xanımlar oldu.

İlk qadın kosmik agentlik rəhbəri- Liza Kempbell Kanada Kosmik Agentliyinə (KKA) rəhbərlik edən ilk qadın kimi tarixə düşüb. Daha əvvəl L.Kempbell Kanadanın Veteranların İşləri nazirinin müavini vəzifəsində çalışıb və Kanada Milli Müdafiə Nazirliyində nazir müavininin köməkçisi olub.

İlk qadın hakim- Ester Morris amerikalıdır, hüquq təhsili olsa da, qadınların bu cür işlərdə işləməsi bir nöz qəbul edilmirdi. 1870-ci ildə, ABŞ-ın Vyominq əyalətindəki şəhərlərin birində məhkəmə sədri təyin edildi. Gözəl bədən quruluşuna, şirin dilə mailk və bir qədər də kəskin sözlü olan bu xanım məhkəmə sədri olduğu dövrdə 70 iddiaya baxdı. Şəhərdə həmişə onun ədalətli olmasından danışırdılar.

İlk qadın Bələdiyyə başçısı - Susanna Medora Salter olub. 27 yaşlı cavan xanım 1887-ci ildə Kanzas əyalətinin Arqonuya şəhərinin Bələdiyyə başçısı seçildi. Seçicilərin üçdə ikisinin səsini yığan Susannanın namizədliyi, özünün xəbəri olmadan üzv olduğu bir dərnək tərəfindən irəli sürülmüşdü. O namizəd olduğunu səs vermək üçün məntəqəyə getdiyi zaman öyrəndi.

İlk qadın Deputat - Hər işdə olduğu qədər qadınlar siyasətdə də kifayət qədər başarılıdır. Bunu ilk dəfə Fillandiya xanımları sübut etdi. 1907-ci ildə Fillandiyada keçirilən seçkilərdə 19 qadın namizəd parlamentə üzvlük haqını qazandı. Doqquz xanım iqtidardakı İctimai Demokrat Partiyadan idi və aralarında bir jurnalist, bir dərzi, bir müəllim, bir bərbər və bir qadın haqqları müdafiəçisi vardı.

İlk qadın Keşiş - Nyu-Yorkda doğulan Antoninette Brovn ilk qadın şagird kimi Oberlin İlahiyyat Kollecinə daxil oldu. 1853-cü ildə kilsəyə 300 dollarlıq maaşla işə təyin olundu. Bütün keşişlərin kişi olması səbəbindən ona maraq çox böyük idi. Kilsəni təmsil edən nümayəndə kimi bəzi görüşlərə qatılanda onu səs-küylə qarşılayırdılar. Amma sonralar buna alışdılar.

İlk qadın Pilot - Onun adı Elis Roşe olub. Elis səmanı çox sevirdi və bu sevgisi onu pilot etdi. 1909-cu ildə ilk dəfə təkbaşına uçan Elis bir illik təhsildən sonra ilk professional qadın pilot adı ilə tarixə düşdü.

Heykəli ucaldılan ilk qadın - Zadəgan və varlıları nəzərə almasaq, heykəli ucaldılan ilk sadə qadın adi tibb bacısı olub. İngilis Doroti Patisson yoxsulların "mələyi" idi. Gecə-gündüz onlar üçün işləyirdi. İşlədiyi qəsəbənin meydanında xalq ona heykəl qoydu.

İlk qadın polis - Dövrümüzdə kifayət qədər polis qadın var. Amma qadınların polis olmadığı bir zamanda ilk addımı atan Alisa Stebbin cəmiyyətin qınağına tuş gəldi. 1910-cu ildə Los Ancelesdə fəaliyyətə başladı. Cəmiyyət onu qəbul etmirdi. Polislərə verilən gediş kartı onu bir çox durmlarda çətin vəziyyətə də saldı Tez-tez ictimai nəqliyatlarda mübahisə etməli olan Alisa öz durumundan narahat olsa da sənətini atmadı.. Polislər nəqliyyatda o kartın sayəsində pulsuz gedirdilər. Stebbin nə vaxt sürücüyə kartını göstərsə onu danlayırdılar və ərinin kartını istifadə etməkdə suçlayırdılar. Stebbin bundan narahat olurdu və bunu komandirinə dedi və onun kartına "kart qadın polisi üçün verilir" yazdılar.

İlk qadın sürücü - "Mersedes Benz" avtomobilinin yaradıcısı Karl Benzin həyat yoldaşı Berta Benz ilk qadın sürücü kimi tarixə düşüb.

Deyirlər, qadın yalnız yaxşı ana, bacı, həyat yoldaşı ola bilər. Bunu deyənlər bir şeyi unudub, qadın həm də yaxşı mütəxəssisdir. Bunu statistika da göstərir. Statistikaya görə qadınlar öz işlərinə kişilərdən daha məsuliyyətli yanaşırlar. Mütəxəssislər isə deyir ki, bir qadının uğuru başqa bir qadının uğurunun təməlini qoyur. Zaman pillədir, qadınlar pillə-pillə çıxaraq dövrümüzdəki hüquqlarını öz zəhmətləri ilə qazanıblar. Bu gün isə dünyanın bütün işlərində kişilərlə bərabər və çiyin-çiyinə iştirak edirlər. Məhz buna görə də artıq qadınları əvvəllər olduğu kimi, zəif cins yox, zəif cins adlandırırlar.

*Lalə Mehralı*

ARAŞDIRMA

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

17 fevral

QARABAĞ AZƏRBAYCANDIR!

## Gündoğan məşqçi olacaq



“Mançester Siti”nin oyunçusu İlkay Gündoğan futbolçu karyerasını bitirdikdən sonra məşqçiliyə başlamaq istəyir. Nüfuzlu Goal.com-un yaydığı məlumatda deyilir ki, bu haqda 30 yaşlı yarımmüdafiəçi özü danışıb. Türk əsilli almaniyalı oyunçu deyib: “Bir müddət əvvəl məşqçilik lisenziyası almaq üçün lazım olan məlumatlarla maraqlandım. Mənim üçün məşqçi olmaq fikri sadəcə bu barədə düşünməkdən daha çox şeydir. Pep Qvardiola, Yurgen Klopp, Tomas Tuhel kimi çalışdırıcılarla - dünyanın ən yaxşı məşqçiləri ilə işləmişəm. Onlardan çox şey öyrəndim və karyeram bitdikdən sonra bu bilikləri ötürmək istəyirəm”. Qeyd edək ki, daha əvvəl karyerasını “Mançester Siti”də bitirəcəyi haqda açıqlama verən Gündoğan bu mövsüm Premyer Liqada 18 matçda 11 qol vurub və 2 qolun ötürməsini verib.

## Ronaldo 8 milyon avroya “oyuncaq” aldı!

Futbol üzrə Portuqaliya millisinin və “Yuventus”un futbolçusu Kriştiano Ronaldo özünə yeni avtomobil alıb. İspaniyanın nüfuzlu “AS” nəşrinin yazdığına görə, 36 yaşlı hücumçu Bugatti Centodieci avtomobili üçün 8 milyon avro xərcləyib. Bildirilib ki, avtomobil hələ sınaq mərhələsindədir, Ronaldo gələn il ondan istifadə edə biləcək.



## Bitcoin 50 min dolları ötdü



Məşhur kriptovalyuta bitkoinin qiyməti tarixi rekordla 50 min dollar üzərinə çıxıb. “İki sahil” xarici mediaya istinadən bildirir ki, “CoinMarketCap” platformasında $50,219 min dollar olub. Bu günlük 4.85% artım deməkdir. Bu Bakı vaxtı ilə 16.35 radələrinə olan göstəricilərdə qeyd edilir.

Qeyd edək ki, dünya da böyük şirkətlər kriptovalyutalara dəstək ifadə etməsi bir nəçə e-pulların qiymətlərinin artmasına səbəb olub.

## Qanunsuz ov edənlər cəzalandırılıb



Qanunsuz ov hallarının qarşısının alınması məqsədilə Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən fevralın 5-dən 14-dək keçirilən növbəti nəzarət tədbirləri zamanı Sumqayıt şəhərinin Xəzər dənizi sahillərində, Xaçmaz, Neftçala və Astara rayonları ərazisindəki su hövzələrində və Mingəçevir su anbarında qanunsuz balıq ovlayan şəxslər saxlanılıb.

Bunu AZƏRTAC-a xidmət rəsmisi Bəhruz Məhəmmədov bildirib: “Araşdırma zamanı brakonyerlərin Sumqayıt şəhər sakini Calal Nəcəfov, Xaçmaz rayon sakini Elman Vəlimətov, Neftçala rayon sakinləri Fazil Baloğlanov, Vüqar Eyvazov, Rövşən Məmmədov, Mətləb Bağırov, Balakən rayon sakini Nizami Gəncəyev, Zaqatala rayon sakini Adil Ağayev, Astara rayon sakini Kamran Əsədullayev və Mingəçevir şəhər sakini Emin Mustafayev olduğu məlum olub. Faktlarla bağlı qanun pozucuları barəsində protokollar tərtib edilib və qanunamüvafiq tədbirlər görülüb”.

B.Məhəmmədov qeyd edib ki, qanunsuz balıq ovu ilə yanaşı, icazə verilməyən ərazilərdə quş ovu ilə məşğul olan Naxçıvan şəhər sakini Hüseyn Salayev, Yevlax rayon sakini İlqar Məmmədov, Abşeron rayon sakini Ərşad Əliyev, Sumqayıt şəhər sakini Zaur Şirinov saxlanılıb və barələrində protokol tərtib edilərək cərimələniblər. Dövlət Ekoloji Təhlükəsizlik Xidməti və Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşlarının keçirdiyi birgə nəzarət tədbirləri zamanı isə Kür çayının Sabirabad rayonu ərazisindən keçən hissəsində qanunsuz balıq ovlayan Sabirabad rayon sakini Oktay Əliyev saxlanılıb. Təbiətə dəymiş ziyanın məbləği cinayət tərkibi yaratdığından hazırda Su Nəqliyyatında Polis İdarəsi tərəfindən təhqiqat aparılır.

## “Nar” Naxçıvanda şəbəkəsini genişləndirməyə davam edir

**Ölkənin bütün regionlarını keyfiyyətli şəbəkə ilə təmin etməyi hədəfləyən “Nar” Naxçıvan Muxtar Respublikasında da baza stansiyalarının sayını artırmağa davam edir. Son iki ayda aparılan şəbəkə təkmilləşdirilməsi işləri nəticəsində Muxtar Respublikada 13 yeni baza stansiyası fəaliyyətə başlayıb.**

Yeni 3G baza stansiyaları Şahbuz, Şərur, Ordubad, Culfa və Kəngərli rayonlarının mərkəzdən kənar kəndlərini yüksək keyfiyyətli şəbəkə ilə təmin edir. Ümumilikdə “Nar” şəbəkəsi NMR-da 158 baza stansiyası ilə əhalinin 99,6%, ərazinin isə 98,5%-ni əhatə edir. Regionlarda yüksək sürətli internetə çıxışı daha əlçatan edən “Nar” bundan sonra da şəbəkə təkmilləşdirilməsi işlərinə davam edəcək. “Nar” şəbəkəsinin əhatə dairəsi ilə daha ətraflı burada tanış ola bilərsiniz.

## Ağcabədidə iki avtomobil toqquşub



Ağcabədi rayonunda yol qəzası olub. Bu barədə Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə Ağcabədi rayonunda “Mitsubishi” və “VAZ” markalı iki minik avtomobilinin toqquşması barədə məlumat daxil olub. Hadisə yerinə cəlb olunan Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq xilasetmə qüvvələri sıxılı vəziyyətdə qalan 1 nəfəri deformasiyaya uğrayan “Mitsubishi” markalı minik avtomobilindən çıxararaq aidiyyəti üzrə təhvil veriblər.

## Sulşer “Yunayted”lə müqaviləni yeniləyir?

“Mançester Yunayted”in baş məşqçisi Ole Qunnar Sulşer klubdakı gələcəyi barədə danışıb. Qol.az VG-yə istinadən xəbər verir ki, 47 yaşlı mütəxəssis “qırmızı şeytanlar”la 2022-ci ilin yayında başa çatacaq müqaviləsini yeniləmək barədə danışıqlar aparmadıqlarını deyib: “Bu haqda heç nəyi müzakirə etməmişik. Hazırda fikrimi işlərimə cəmləşdirmişəm. Oyunumuzda sabitlik yaratmaq lazımdır. Məğlub olanda bu, böhran kimi hiss olunur. Futbolda belə vəziyyətlər olur. Ancaq dərindən baxsaq, görərik ki, komanda elə də pis durumda deyil. Bilirəm ki, çox sayda tənqid və müzakirələr vardı. Amma mən ilk növbədə strategiya barədə qərar verdim. Buna görə də mən özümə inanıram. Narahat olmayın”. Qeyd edək ki, bu mövsüm Premyer Liqada Sulşerin baş məşqçiliyi altında 46 xal toplayan “Mançester Yunayted” 2-ci pillədə qərarlaşır və lider “Mançester Siti”dən 7 xal geri qalır.

## Başsağlığı

SƏS Media Qrupu adından Baş redaktor Bəhruz Quliyev, qəzetin əməkdaşı Vüqar Vəliyevə anası

**Teyfə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

*Baş redaktor:*

Bəhruz Quliyev

*Baş redaktorun müavinləri:*

Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600